RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 38 (9783) 20 fevral 2025-ci il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Öz gücümüzə arxalanaraq Qarabağı və Şərqi Zəngəzuru dirçəldirik

## Ağdaş rayonunun Davudlu-Binələr-Güvəkənd- Əmirarx-Qaradeyin-Eymur-Ərəbşəki-Ağcaqovaq avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Doqquz min nəfər əhalinin yaşadığı 8 yaşayış məntəqəsini birləşdirən Davudlu-Binələr-Güvəkənd-Əmirarx-Qaradeyin-Eymur-Ərəbşəki-Ağcaqovaq avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

*Bakı şəhəri, 19 fevral 2025-ci il*

## Prezident İlham Əliyev Xankəndi və Xocalıya səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında və Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.

Prezident İlham Əliyev Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.

Həmin gün Prezident İlham Əliyev Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.

2-4

## Prezidentin növbəti Qarabağ səfəri

### Böyük qayıdış proqramının icrası davam edir

Azərbaycanın 2030-cu ilədək 5 milli prioritetindən biri Böyük qayıdış proqramının icrasıdır. Təbii ki, 4 ildə İlham Əliyevin rəhbərliyi ilə regionda xeyli yaşayış evi, sosial obyekt tikilib, yol-nəqliyyat infrastrukturu, istehsal müəssisələri istifadəyə verilib. İşğaldan azad edilmiş ərazilərdə başlanan işlərin xronologiyasına nəzər salanda heyrətlənməmək olmur. Nəhəng infrastruktur layihələrinin qısa müddətdə icrası möcüzə təsiri bağışlayır. Sözsüz ki, həmin möcüzəni yaradanlardan birincisi Prezident İlham Əliyevdir.

Dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın fevralın 18-19-da Ağdam və Xankəndiyə etdiyi növbəti səfəri də bu qəbildəndir. Səfər proqramı Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunan "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanışlıqla başladı. Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var. Burada qonaqların zövqünü oxşayan interyer işləri görülüb. "Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Sonra "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edən Prezidentə məlumat verildi ki, ikimərtəbəli mərkəzin birinci mərtəbəsində hər birinin gücü 2500 KVa olan 35/0,4 kilovoltluq 2 güc transformatoru, 35 və 0,4 kilovoltluq qapalı paylayıcı qurğular, ikinci mərtəbəsində idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

9

## Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası öz işinə başlayıb

Açılış mərasimində çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova sessiya iştirakçılarını salamlayaraq, bu plenar sessiyada iştirak etdikləri üçün parlamentlərin və beynəlxalq təşkilatların nümayəndələrinə minnətdarlığını bildirib. O qeyd edib ki, sessiya əməkdaşlığımızı daha da inkişaf etdirmək və bu platformanı möhkəmləndirmək istiqamətində qətiyyətli niyyətimizin və sadiqliyimizin göstəricisidir.

Spiker diqqətə çatdırıb ki, tam bir il əvvəl, Azərbaycan Respublikasının Milli Məclisi Asiya Parlament Assambleyasına sədrliyi öz üzərinə götürdü. Sədrliyimiz çərçivəsində birgə fəaliyyətimizin daha da gücləndirilməsi üçün APA-nın institusional potensialının inkişaf etdirilməsi, üzvlük sıralarımızın genişləndirilməsi, mövcud qurumların fəaliyyətinin canlandırılması və səmərəliliyinin artırılması kimi bir sıra prioritetlər irəli sürdük.

Milli Məclisin Sədri bildirib ki, dünən keçirilən assambleyanın İcraiyyə Şurasının iclasında iki müraciət - Oman Sultanlığının Şura Məclisinin Assambleyanın tamhüquqlu üzvlüyünə qəbul olunması ilə bağlı müraciəti və Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Asiya Parlament Assambleyasında müşahidəçi statusu alması üçün müraciəti nəzərdən keçirilib.

6

## Qan yaddaşı - ədalətin hökmü

### Tarixin müxtəlif dönəmlərində erməni faşizminin qurbanına çevrilən şəhidlərimizin qisası yerdə qalmadı

XX əsrin faciəsi kimi tarixə düşən Xocalı soyqırımı zamanı əhalimizə tutduqları divan, əsir və girov götürdükləri insanlara verdikləri insan ağlına sığmayan dəhşətli işgəncələr erməni faşizminin qanlı simasını gözlər önünə sərməyə bəs edir.

Hərbi cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin Bakıda keçirilən məhkəməsində təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktları elan olunub. Bildirilib ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlığına ağır və əqli qabiliyyətinə ciddi zərər vurmaq məqsədilə Xocalı rayonuna və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıların baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, cinayətkar fəaliyyətinin qarşısının alınması üçün zərərsizləşdirilmiş erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa fərq qoymadan qəddarlığla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxs qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

10




## Təxribatların himayədarı - USAID

### ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin çirkin oyunları ilə bağlı yeni faktlar üzə çıxır

USAID formal olaraq müstəqil dövlət agentliyi hesab olunsa da, birbaşa ABŞ Prezidenti, dövlət katibi və Milli Təhlükəsizlik Şurasının tabeçiliyində idi. Onun rəhbəri və müavinləri ABŞ Senatının razılığı ilə ABŞ Prezidenti tərəfindən təyin olunur(du). Maliyyə vəsaitinin həcminə görə dünyanın ən öndə gedən təşkilatıdır, desək, yanılmarıq. Rəqəmlərə diqqət edək: 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAID xətti ilə 335 milyard dollar xərclənib. Bu, az qala orta səviyyəli dövlətin illik büdcəsindən 10 dəfə çoxdur. Dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi və 10 mindən artıq əməkdaşı olan USAID guya ehtiyacı olan ölkələrə humanitar yardım, iqtisadiyyat, səhiyyə, təhsilə, demokratiya sahələrinə dəstəklə məşğul olsa da, əslində, onun fəaliyyəti bütün dünya üzrə QHT və medianı qanunsuz maliyyələşdirməklə ölkələrin daxili işlərinə qarışmağa, ictimai rəyə təsir imkanları qazanmağa və bu rıçaqlardan təzyiq və hətta dövlət çevrilişləri üçün istifadə etməyə, müstəqil dövlətlərdə qanuni seçilmiş hakimiyyətləri devirməyə yönəlib.

8

Prezident İlham Əliyevin Xankəndiyə və Xocalıya səfəri

# Öz gücümüzə arxalanaraq

## Xankəndidə "Bulud" hoteli istifadəyə verilib










**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak edib.**

AZƏRTAC bildirir ki, Prezidentin İşlər müdiri Ramin Quluzadə dövlətimizin başçısına görülən işlər barədə məlumat verdi.

Ümumi sahəsi 5325 kvadratmetr olan hotel beş mərtəbədən ibarətdir. Hoteldə 45 nömrə var və 91 qonaq qəbul edə biləcək. Müasir iaşə məkanlarının yaradıldığı hoteldə "Lobby lounge", kafe, açıq və qapalı restoranlar fəaliyyət göstərəcək.

Hoteldə 50 nəfər işlə təmin olunub.

Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimiz tarixi-mədəni abidələrlə yanaşı, füsunkar təbiətə, yeraltı və yerüstü sərvətlərə, geniş turizm imkanlarına malikdir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda nəzərdə tutulan əsas prioritetlərdən biri də məhz bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı üçün zəruri təminatların yaradılmasıdır. Artıq son illər bu istiqamətdə genişmiqyaslı işlər görülür. Füzuli və Zəngilanda yaradılan, Laçında tikintisi davam edən beynəlxalq hava limanları, inşa olunan müasir hotellər və həyata keçirilən digər infrastruktur layihələri azad olunan ərazilərimizin turizm potensialının reallaşmasında, turistlərin bu bölgələrə cəlb edilməsində mühüm rol oynayacaq.

## Xankəndidə Zəfər parkının təməlqoyma mərasimi olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib.**

AZƏRTAC bildirir ki, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına parkda görüləcək işlər barədə ətraflı məlumat verdi.

Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə 12,9 hektar ərazidə söküntü işlərinin aparılması nəzərdə tutulub. Ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq.

Ərazidəki mövcud ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur.

Hazırda ərazidə planlaşdırma işləri görülür.





Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının təməlini qoydu.

Qeyd edək ki, ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir.

Ölkəmizin müxtəlif bölgələrində, o cümlədən Xankəndi şəhərində yaradılacaq Zəfər parkı tarixi Qələbəmizin yaddaşlarda yaşadılması, yaradılmış qəhrəmanlıq nümunələrinin əbədiləşdirilməsi, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması üçün mühüm əhəmiyyətə malikdir. Zəfər parkı Azərbaycanın gücünü, xalqımızın əzmini və azərbaycanlıların Vətən torpağına olan bağlılığını göstərən bir məkandır.

Prezident İlham Əliyevin Xankəndiyə və Xocalıya səfəri

# Qarabağı və Şərqi Zəngəzuru dirçəldirik

## Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki ilə tanışlıq

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub.**

AZƏRTAC bildirir ki, dövlətimizin başçısına istehsal müəssisəsi barədə məlumat verildi.

Qeyd edək ki, ərazisi 1,2 hektar olan fabrikin inşası Azərbaycan və Özbəkistan arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentlərinin tapşırıqlarına əsasən həyata keçirilib. Layihənin ümumi investisiya dəyəri 11 milyon manat təşkil edir. İndiyədək 5,5 milyon manat investisiya qoyulub. Fabrikin xammal tədarükü üçün birgə sənaye əməkdaşlığı həyata keçirilir. Həmçinin fabrik tam gücü ilə işlədikdən sonra yerli pambıq xammalı əsasında parça toxunması üçün istehsal sahəsinin yaradılması nəzərdə tutulur.

Ümumilikdə burada 800 iş yeri yaradılacaq. Layihənin ilkin mərhələsi üzrə peşəkar təlim almış 300 nəfər hazırda işlə təmin olunub. Müəssisədə əsasən işğaldan azad edilmiş ərazilərə qayıdan və ətraf rayonlarda yaşayan vətəndaşların məşğulluğuna xüsusi diqqət yetirilib.









Müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır. Gələcəkdə isə Xankəndi tikiş fabrikində ildə 3-5 milyon ədəd müxtəlif trikotaj məhsulları istehsal edilməsi nəzərdə tutulur. Fabrikdə istehsal olunacaq məhsullar müxtəlif ölkələrə də ixrac ediləcək.

Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabriki yüngül sənayenin inkişafı üçün yeni imkanlar açır və ölkələrimiz arasında ənənəvi dostluq, qardaşlıq, iqtisadi tərəfdaşlıq əlaqələrini möhkəmləndirir.

Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 tədbiri zamanı Azərbaycan Prezidenti İlham Əliyev və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən videobağlantı vasitəsilə Xankəndi tikiş fabrikinin açılışı olub.

## Prezident İlham Əliyev Xocalının Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kəndə köçən bir qrup sakinlə görüşüb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xocalı rayonunun Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, sonra kəndə köçən bir qrup sakinlə görüşüb.**





AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə kənd sakini Məmməd Quliyevin evində yaradılan şəraitlə tanış oldu.

**Kişi sakin:** Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Salam, xoş gördük.

**Qadın sakin:** Xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Necəsiniz?

**Kişi sakin:** Çox sağ olun, Xocalı rayonunun Ballıca kəndinə xoş gəlmisiniz.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Allah Sizi qorusun, bu günü bizə yaşatdınız.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** 30 illik həsrətimizə son qoydunuz.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Kişi sakin:** Sağ ol, qadan alım.

**Prezident İlham ƏLİYEV:** Siz bu kənddənsiniz?

**Kişi sakin:** Bəli. Buyurun keçin.

Xoş gəlmisiniz, cənab Prezident, Sənə qurban olum.

**Prezident İlham ƏLİYEV:** Xoş gördük. Necə yaşayırsınız burada?

**Kişi sakin:** Yaxşı, keç stolun başına, keç oraya. Sənə qurban olum, sən gələn yollara qurban olum.

**Prezident İlham ƏLİYEV:** Ballıca kəndinə yerləşdiyiniz üçün sizi təbrik edirəm.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Əyləş qızım. Uzun illərin həsrətinə son qoyduq.

**Kişi sakin:** Allah Sənə dəyməsin, intizarımıza son qoydun. Bu elə-belə son deyil. Bu, böyük sondur.

**Prezident İlham ƏLİYEV:** Vaxtilə işğal altında olmuş bütün şəhər və kəndlərimizi indi bərpa edirik. Ballıca kəndi 10-cu yaşayış məntəqəsidir ki, işğaldan sonra biz artıq bu kəndi də bərpa etdik. Mənə verilən məlumata görə, artıq 460 keçmiş köçkün burada yerləşib, 137 ev bərpa edilib və əlavə təqribən 60-a yaxın ev də bərpa olunacaq. İndi 460 insan artıq bu kənddə yerləşib, şərait də yaxşıdır.

**Kişi sakin:** Qəşəng şəraitdir. Hamısı da eynidir.

**Prezident İlham ƏLİYEV:** Evlər bərpa edilib, yenidən tikilib. Burada rahat yaşamaq üçün bütün şərait, imkanlar var. Bildiyiniz kimi, Ballıca kəndini biz 2023-cü ilin sentyabrında azad etdik. Torpaqlarımızın işğaldan azad edilməsi mərhələli yollarla təmin olunmuşdur. İkinci Qarabağ müharibəsi və ondan sonra antiterror əməliyyatı ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsinə gətirib çıxardı, separatçıların kökü kəsildi. Azərbaycan ərazisində separatizmin kökü tam kəsilmişdir və Azərbaycan vətəndaşları öz doğma torpağına qayıda bilirlər. İndi hər yerdə quruculuq, bərpa işləri aparılır. Dünən mən Ağdam rayonunda idim. Ağdam şəhəri sıfırdan inşa edilir və gözəl şəhər olacaq. Xankəndini də biz bərpa edəcəyik və vaxtilə burada yararsız vəziyyətə düşmüş binalar indi sökülür, yeni binalar inşa edilir və ediləcək. Bildiyiniz kimi, Qarabağ Universiteti artıq fəaliyyət göstərir və bu il yeni korpuslar inşa olunacaq. Artıq orada mindən çox tələbə oxuyur. Ona görə hər cür şərait var - ali məktəb var, orta məktəblər var, xəstəxanalar, ictimai yerlər, iş yerləri. Bu gün mən tikiş fabrikinin fəaliyyəti ilə tanış oldum. Artıq 200-dən çox işçi var. Özü də əksəriyyəti, demək olar ki, mütləq əksəriyyəti qadınlardır. Qadınlar üçün də iş yerləri yaradılıb. Əsas odur ki, indi tikinti-bərpa işləri sürətlə getsin. Bunun üçün bütün gücümüzü səfərbər etmişik, o cümlədən Ballıca kəndinin bərpası da artıq son mərhələdədir. Təbii ki, Ballıcada olub, balın dadına baxmamaq mümkün deyil. Bu, Ballıca balıdır, yoxsa başqa yerdən gətirilib?

**Qadın sakin:** Bunu öz təsərrüfatımdan gətirmişəm, inşallah, gələcəkdə...

**Xüsusi nümayəndə Elçin YUSUBOV:** Cənab Prezident, vətəndaş özü arıçılıqla məşğuldur.

**Qadın sakin:** Təsərrüfatım da var.

**Prezident İlham ƏLİYEV:** Əlavə tövlə də tikiləcək?

**Qadın sakin:** Əlavə tövlə də tikiləcək.

**Prezident İlham ƏLİYEV:** Mal-qara var?

**Qadın sakin:** Bəli, 20 baş varımdır. Arım da var.

**Elçin YUSUBOV:** Satış üçün dükan da verdik, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Örüş yerləri də...

**Elçin YUSUBOV:** Var, var. Siz tapşırıq verdiniz, artıq danışmışam.

**Prezident İlham ƏLİYEV:** Bəli, tapşırıq verdim ki, torpaq sahələri ayrılsın, həm örüş yerləri, həm əkinçilik üçün.

**Kişi sakin:** Çox sağ ol, cənab Prezident. Ulu Öndər Heydər Əliyev o vaxt Azərbaycanın rəhbərliyində olsaydı, bu bəlalar başımıza gəlməzdi. Allah onun yerini behişt eləsin, Səni də ömür boyu Azərbaycanın üstündən əskik etməsin.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, çox sağ olun.

**Kişi sakin:** İndiyədək ermənilər müsəlmanları qırıb. Onların cavabını Sən verdin. Allah Səni qorusun, balalarını qorusun!

**Qadın sakin:** Allah şəhidlərimizə də rəhmət eləsin, qazilərimizə cansağlığı versin.

**Prezident İlham ƏLİYEV:** Sağ ol ağsaqqal, çox sağ ol. Bu, bizim borcumuz idi, torpaqlarımızı işğalçılardan azad etmək bizim milli ideyamız idi. Bütün Azərbaycan xalqının iradəsi və şəhidlərimizin, qəhrəmanların fədakarlığı, şücaəti hesabına biz buna nail olmuşuq.

*Ardı 4-cü səh.*

◆ Prezident İlham Əliyevin Xankəndiyə və Xocalıya səfəri

# Öz gücümüzə arxalanaraq Qarabağı və Şərqi Zəngəzuru dirçəldirik

## Prezident İlham Əliyev Xocalının Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kəndə köçən bir qrup sakinlə görüşüb





*Əvvəli 3-cü səh.*

**Kişi sakin:** Olmusan. Olmusan, Sənə qurban olum.

**Prezident İlham ƏLİYEV:** Təbii olaraq Ali Baş Komandan kimi bütün əməliyyatlara özüm rəhbərlik etmişəm və yenə də deyirəm, mənim üçün Prezident kimi bu vəzifədən daha ümdə vəzifə olmayıb heç vaxt. Bütün prezidentlik dövrümü də buna həsr etmişəm ki, biz torpaqlarımızı azad edək, işğalçıları torpağımızdan qovaq, haqq-ədaləti və milli ləyaqətimizi bərpa edək. Buna da nail olduq.

**Kişi sakin:** Sən oldun Prezidentim, sənə qurban olum,

**Prezident İlham ƏLİYEV:** Çox sağ ol. Əlbəttə ki, siz də qeyd etdiyiniz kimi, əgər Ulu Öndər Heydər Əliyev o vaxt Azərbaycanda hakimiyyətdə olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Bilirsiniz ki, o illərdə qanunsuz Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı və fəaliyyət göstərirdi. Ulu Öndər çalışırdı ki, burada yaşayan azərbaycanlıların hüquqları təmin edilsin. Ancaq o, 1980-ci illərin sonlarında siyasi səhnədən gedəndən sonra bizim başımıza bu bəla gəldi. Yəni o, istefa verəndən iki həftə sonra erməni separatçıları baş qaldırıb bizə qarşı ərazi iddiası ilə çıxış etmişdilər. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi bu məsələyə laqeyd yanaşdı. Faktiki olaraq fəaliyyətsiz idi və separatçılar daha geniş imkanlara malik oldular. Mərkəz, yəni Sovet İttifaqının rəhbərliyi onların tərəfində idi, ovaxtkı Dağlıq Qarabağı Azərbaycandan ayırmaq üçün bütün çirkin əməllərindən də çəkinmirdi. Burada xüsusi komitə yaradıldı və o komitə faktiki olaraq Qarabağı Azərbaycandan ayırmaq üçün bir vasitə idi. Mən sovet dövrünün tarixini qeyd edirəm. O ki qaldı müstəqillik dövrünə, müstəqillik elan olunandan dörd ay sonra Xocalı soyqırımı törədildi, bu da böyük vəhşilik, barbarlıq idi. Ondan sonra digər kəndlərimizin sakinləri soyqırımına məruz qaldılar, bütün azərbaycanlılar Xankəndidən və ətraf kəndlərdən didərgin salındılar. Sonra yeddi rayonumuz işğal edildi. Bütün bunlar ovaxtkı Azərbaycan rəhbərliyinin cinayətləri nəticəsində baş vermişdir. Əgər Heydər Əliyev xalqın tələbi ilə vaxtında hakimiyyətə gəlməsəydi və o vaxt müharibə dayanmasaydı, bəlkə də daha da böyük ərazilər işğal altına düşərdi.

**Kişi sakin:** Heydər baba gəlməsəydi, hamısı xanlıq olub hərəsi bir tirə aparası idi, burada dövlət olmayacaqdı. Hər şey göz qabağında idi.

**Prezident İlham ƏLİYEV:** Bəli, düz deyirsiniz, elədir. Dövlət qurdu, ordu qurdu. Azərbaycan vətəndaşları indi burada gözəl evlərdə rahat yaşayırlar. Ev-eşik, təsərrüfat, mal-qara, hər şey. Bal da, maşallah çox dadlıdır. Bu bölgənin balının da fərqli dadı var.

**Kişi sakin:** Bu, qaratikan balıdır.

**Prezident İlham ƏLİYEV:** Mən 2020-ci ildən sonra - müharibədən sonra, Zəfərimizdən sonra ancaq bu bölgənin balını yeyirəm. Kəlbəcər və Laçın balını. İndi Ballıca balı da yedim.

**Kişi sakin:** Mən ürəyimdə deyirdim ki, İlahi, görəsən qismət olar ki, gedək Ballıcadan keçək, Vətənə baxaq? Ay Allah, bu günü bizə nəsib eləyənə qurban olum. Bu, böyük Qələbədir, böyük Qələbədir.

**Prezident İlham ƏLİYEV:** Sizi bir daha təbrik edirəm, xoşbəxt yaşayın.

**Kişi sakin:** Çox sağ olun.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev kənd sakini Əvəz Orucovun evində yaradılan şəraitlə tanış oldu.

❖ ❖ ❖

Daha sonra Ballıca kənd sakinləri ilə görüş oldu. Dövlətimizin başçısı görüşdə çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı





- İki aydır ki, Ballıca kəndində keçmiş köçkünlər yaşayır. Mən bu gün burada bir neçə keçmiş köçkünlə görüşmüşəm, ev şəraitinə baxmışam. Şadam ki, uzun fasilədən sonra Ballıca kəndinə də artıq həyat qayıdıb. Keçmiş köçkünlər indi, demək olar ki, hər ay hissə-hissə, qrup-qrup öz dədə-baba torpaqlarına qayıdırlar. Böyük qayıdış proqramı icra edilir. Demək olar ki, vaxtilə işğal altında olan bütün torpaqlar bərpa edilir. Dünən Ağdam rayonunda gedən quruculuq-bərpa işləri ilə tanış olmuşam. Bu gün buradayam. Eyni zamanda Xankəndidə də olmuşam, orada da gözəl işlər görülür, yeni iş yerləri, yeni müəssisələr yaradılır. Mənim sərəncamımla Qarabağ Universiteti yaradılmışdır. Orada mindən çox tələbə oxuyur. Orta məktəblər, tibb məntəqələri inşa olunur. Yəni həyat üçün nə lazımdırsa, hər şeyi edirik, həm şəhərləri, həm də kəndləri bərpa edirik.

Ballıca kəndinin də bərpası artıq son mərhələdədir. Mənə verilən məlumata görə, 137 ev artıq bərpa edilib və 60-a yaxın ev hələ bərpa olunacaq. Ballıcada artıq 460 keçmiş köçkün yerləşib. Evləri bərpa etmişik, kənd təsərrüfatı ilə məşğul olmaq üçün imkanlar yaxşıdır, torpaq münbitdir, hava da təmizdir. Bütün Qarabağ bölgəsi, Şərqi Zəngəzur bölgəsi dirçəlir və hər gün biz bunu əyani şəkildə görürük.

Əlbəttə ki, Vətən həsrəti ilə yaşamış insanlar üçün ən yaxşı şəraiti yaratmaq dövlətimizin borcudur. Mənim də Prezident kimi əsas borcum bu gün bundan ibarətdir. İşğala son qoyduq, 2023-cü ildə antiterror əməliyyatı nəticəsində bu bölgəni də işğaldan azad etdik. Ballıca və yüzlərlə digər yaşayış məntəqəsi artıq işğalçılardan tam azad olunmuşdur və indi həyatı bərpa edirik. Yəni hər şeyi mərhələli yollarla edirik, öz gücümüzlə, bizə heç kim kömək etmir. Ancaq öz imkanlarımız daxilində, öz gücümüzə arxalanaraq, Azərbaycan xalqının imkanlarına arxalanaraq, dövlət hesabına bütün bərpa-quruculuq işləri aparılır, özü də qısa müddət ərzində.

İndi İkinci Qarabağ müharibəsindən dörd il keçibdir, baxın nə qədər böyük işlər görüldü, hər yerdə, təkcə Xocalı rayonunda yox. Halbuki Xocalı şəhərini bərpa etmək bizim ən başlıca borcumuz idi. Çünki müharibədən və işğaldan, Birinci Qarabağ müharibəsinin çətin vəziyyətindən əziyyət çəkən ən çox elə xocalılılar olmuşdur, onlara qarşı soyqırımı törədilmişdi. Ona görə Xocalını azad etmək hər zaman gündəlikdə duran məsələ idi. İkinci Qarabağ müharibəsi 2020-ci il noyabrın 10-da dayanandan sonra yenə də bütün köçkünlər bilirdilər ki, Xocalı azad olunmayana qədər biz işimizi bitmiş hesab etməyəcəyik. Nəinki Xocalı, Xankəndi də, Ağdərə, Xocavənd və Əsgəran rayonları da işğalçılardan tam azad edildi. Yüzlərlə kənd artıq öz sahiblərini gözləyir.

Ballıca kəndi bərpa etdiyimiz və keçmiş köçkünlərin qayıtdığı 10-cu yaşayış məntəqəsidir. Yəni bu, Böyük qayıdış proqramının birinci mərhələsinə aiddir. Artıq burada, yenə də deyirəm, 500-ə yaxın insan yaşayır. Həm o vaxt bu bölgədə yaşayan vətəndaşlar, eyni zamanda onların uşaqları, nəvələri, nəticələri qayıdıblar.



Bu, bir daha onu göstərir ki, xalqımız öz torpağına nə qədər bağlıdır. Bu gün bölgəni, bu yerləri görməyən balaca uşaqlar, yaxud da ki, gənc insanlar həvəslə qayıdırlar, işləyirlər, qururlar, yaradırlar. Öz torpaqlarına qayıdan keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında həmişə gənclərdən soruşuram ki, siz darıxmırsınız burada? Deyirlər, yox, darıxmırıq. Çünki doğma Vətən, doğma torpaq bizi çəkir və bu, bir daha xalqımızın nə qədər yüksək mənəvi keyfiyyətlərə malik olduğunu göstərir.

Mən sizi təbrik edirəm. Yenə də deyirəm, artıq iki aydır ki, siz burada mərhələli yollarla məskunlaşırsınız, dekabrın 13-dən başlayaraq bu günə qədər. Hələ ki proses davam edir. Hələ bərpa ediləsi evlər var, onları da bərpa edəcəyik. Burada insanlar rahat, təhlükəsiz və xoşbəxt yaşamalıdırlar. Bunun üçün Azərbaycan dövləti bundan sonra da hər şeyi edəcəkdir. Bir daha sizi təbrik edirəm.

Sakinlər yaradılan şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

**Sakin:** Xoş gəlmisiniz, möhtərəm Prezident. Mən yazdığım bir şeirlə xalqa fikrimi çatdırmaq istəyirəm, icazə versəniz.

**Prezident İlham ƏLİYEV:** Buyurun.

**Sakin:**

*Ey uca millətim, uca dövlətim,*
*Ucalsın bayrağın uca dağ kimi.*
*Sönməsin ocağın, sönməsin odun,*
*Rəbbin yandırdığı bir çıraq kimi.*
*Açılsın sabahın, gülsün millətin,*
*Qalmasın möhnətin, dərdin, zülmətin.*
*Xalqa məlhəm olsun gücün, qüdrətin,*
*Xəstəyə can verən bir loğman kimi.*
*İlhamam, adına qurbanam özüm,*
*Haqqını itirsəm, kor olsun gözüm,*
*Türkün birliyinə yar olsun sözüm,*
*Torpağa can verən bir bulaq kimi.*

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun.

**Sakin:** Çox sağ olun. Yenə minnətdarıq. Çox sağ olun, hər birimiz minnətdarıq Sizə.

**Prezident İlham ƏLİYEV:** Oğlunuz şəhid olub?

**Qadın sakin:** 1992-ci ildə.

**Prezident İlham ƏLİYEV:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Bir şəhid ailəsi kimi sənə təşəkkürümü bildirirəm. Çox sağ olun.

**Prezident İlham ƏLİYEV:** Allah bütün şəhidlərimizə rəhmət eləsin. Həm Birinci Qarabağ müharibəsi şəhidlərinin, həm də ki, Vətən müharibəsi şəhidlərinin qanını biz döyüş meydanında aldıq, onların qisasını aldıq və ədaləti bərpa etdik. Onların xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq.

**Qadın sakin:** Onun qəbrini ki, gördüm, çox sağ olun. Nənən sənə qurban olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Kişi sakin:** Möhtərəm cənab Prezident, cənab Ali Baş Komandan, Siz Ballıca kəndinə xoş gəlmisiniz. Cənab Prezident, ermənilərin ən böyük terror dəstələri Ballıca kəndində məskunlaşmış və buradan öz çirkin əməllərini həyata keçirməyə çalışmışlar. Bu gün Bakı həbsxanalarında özlərini quzu kimi aparan erməni cəlladları, sözün həqiqi mənasında, xalq arasında deyildiyi kimi, Ballıca kəndində at oynatmışlar. Sizin böyük siyasətinizin nəticəsində xalqımız, camaatımız bu gün Sizinlə görüşə Ballıca kəndinə gəlmişdir və bu görüş bizim arzuladığımız görüşdür. Bu görüşə görə Sizə minnətdarlığımızı, təşəkkürümü bildirirəm.

Cənab Prezident, Qarabağla bağlı Böyük Qayıdışa dair Dövlət Proqramı uğurla həyata keçirilir, Sizin göstərişinizlə Ballıca kəndində həyat qaynayır. Necə deyərlər, biz vətənimizə, torpağımıza gələndən sonra ilk olaraq şəhidlərimizin döyüşdüyü yerləri, əsgərlərimizin erməni quldurlarına qan uddurduqları yerləri və böyüklərimizin, ululalarımızın uyuduğu məkanları ziyarət etmişik. Bu ziyarətləri bizə Siz, cənab İlham Əliyev bəxş etmişdir. Ona görə biz Sizə öz təşəkkürümüzü bildiririk. Sizə sonsuza qədər təşəkkür etsəm azdır. Əllərimi uca göylərə açaraq söyləyirəm: "Tanrı Sizi qorusun!" "Tanrı ailənizi qorusun!" "Tanrı xalqımızı qorusun!"

**Sakinlər:** Amin!

**Sakin:** Sağ olun. Nə yaxşı ki, Siz varsınız. Sizə bizim böyük ehtiyacımız vardır. Sağ olun, təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, təbrik edirəm. Necə yaşayırsınız burada? Hər şey yaxşıdır?

**Sakinlər:** Xoş gəlmisiniz. Allah Sizi qorusun. Ali Baş Komandan, "dəmir yumruq" buradadır.

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Maşallah, sənin də yumruğun yaxşıdır.

**Kişi sakin:** Cənab Prezident, çox sağ olun. Var olun ki, o əmri verdiniz, o "dəmir yumruq"la onların başını əzdik. Minnətdarıq Sizə.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizə minnətdaram. Sizin kimi oğullar hesabına torpaqlarımızı düşməndən azad etdik.

**Kişi sakin:** Borcumuzdur, cənab Prezident.

**Qadın sakin:** Hörmətli Prezidentimiz, Siz Ballıca kəndinə çox xoş gəlmisiniz. Allah Sizi qorusun, Allah ordumuzu qorusun, Allah şəhidlərimizə də rəhmət eləsin, qazilərimizə cansağlığı versin. Bugünkü günü bizə yaşatdığınız üçün Sizə çox-çox təşəkkürümü bildirirəm. Allah sizləri qorusun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun, sizi bir daha təbrik edirəm.

❖ ❖ ❖

Sonra xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** Qarabağın torpağı bütövlükdə hər yerdə yaxşıdır. Buradan yaxşı məhsul götürmək olar. O vaxt - sovet dövründə burada camaat daha çox maldarlıqla məşğul idi. İndi necə, maldarlıq var?

**Sakin:** Gətirir özü ilə, olanlar var.

**Prezident İlham ƏLİYEV:** Bəs əkinçilik necə?

**Sakin:** Əkinçilik də yavaş-yavaş başlayır.

**Prezident İlham ƏLİYEV:** Hər halda həyətyanı sahələrdə, yəqin ki, bostan da əkilir?

**Sakin:** Əkirik. Yararlı torpaqdır, çox gözəl torpaqdır.

**Prezident İlham ƏLİYEV:** Buradan bol məhsul götürmək olar.

**Sakin:** Bəli, çalışan götürər.

**Prezident İlham ƏLİYEV:** İşləmək lazımdır.

**Sakin:** Xanın bağlarıdır bura. Bizdə "Məhəmməd ağa" deyilən otlaq var. Üç tərəfi Kosalar kəndidir, Ballıcadır. Ermənilər burada çox at oynadıblar. Son soyqırımında aeroport tərəfdən birinci hücuma keçiblər, sonra Kosalar kəndinin sakinləri burada tək qalıb. Xocalı rayonunda ən son Şuşa əhalisi çıxandan bir gün sonra, bax, bu dumanın altında Kosalar əhalisi çıxıbdır.

**Prezident İlham ƏLİYEV:** Doqquzunda?

**Sakin:** Bəli. Buradan üç bulağın suyu gəlir: "Təkqəbir" bulağı, "Sarıtala" bulağı, "Alçalı" bulağı. Bulaq suyudur, götür o çayın suyunu iç. Belə gözəl yerə bizi gətirdiyiniz üçün Sizə nə qədər təşəkkür eləmək olar?! Mən oğlumun adını İlham qoymuşam. İnanın Allahdan arzu edirəm, bir nəvəm olsun, onun da adını İlham qoyacağam. Dünya tarixində belə bir şey yoxdur, 300 ildən çox, 500 ildən çox bir qarış torpaq geri qaytarılsın. Xalqımız Sizə nə qədər təşəkkür etsə azdır. Var olun, cənab Prezident.

**Sakin:** Bəli, mən "Qarabağ" şeirinin sonunda İsmayıl qardaşın dediyi kimi yazıram:

*Dünya bu Zəfərə özü mat qalıb,*
*Əyrisi lal olub, düzü mat qalıb,*
*Əbədi, silinməz bir hikmət qalıb,*
*Azərbaycandır deyən sözüm Qarabağ,*
*Sənə qurban olum, özüm Qarabağ.*

**Sakinlər:** Yaşa, cənab Prezidentimiz! Var olun, Prezidentimiz.

**Prezident İlham ƏLİYEV:** Xoşbəxt yaşayın.

**Sakinlər:** Var olun, Allah qorusun!

# Azərbaycan ilə Pakistan arasında uğurlu hərbi əməkdaşlıq həyata keçirilir

## Azərbaycan Prezidenti İlham Əliyev Pakistan Senatının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Pakistan İslam Respublikasının Senatının sədri Seyid Yusuf Rza Gilanini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, Seyid Yusuf Rza Gilani Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari və Baş naziri Məhəmməd Şahbaz Şərifin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Pakistanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

Qonaq Bakıda COP29-un uğurla keçirilməsi münasibətilə bir daha təbriklərini çatdırdı.

Dövlətimizin başçısı Pakistanın Baş nazirinin COP29-da iştirakını məmnunluqla xatırlayaraq bunu yüksək qiymətləndirdi.

Görüşdə Azərbaycan ilə Pakistan arasında iqtisadi-ticari, energetika və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıldı, uğurlu hərbi əməkdaşlığın həyata keçirildiyi vurğulandı. Eyni zamanda ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsindən məmnunluq ifadə olundu, parlamentlərimiz arasındakı əlaqələrin və hökumətlərarası komissiyanın işinin əhəmiyyəti qeyd edildi.



Azərbaycan ilə Pakistan arasında əlaqələrin Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli əməkdaşlıq formatında inkişafı və bu formatda üçtərəfli görüşlərin əhəmiyyətinə toxunuldu.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Azərbaycan-İndoneziya əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparıldı

## Prezident İlham Əliyev İndoneziya Nümayəndələr Palatasının sədrini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İndoneziya Respublikası Nümayəndələr Palatasının sədri Puan Maharanini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda keçirilən Asiya Parlament Assambleyasının "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının önəminə toxunuldu, bu tədbirin parlamentlərarası əməkdaşlığın gücləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə Azərbaycanla İndoneziya arasında əlaqələrin perspektivləri, həmçinin parlamentlərimiz arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparıldı.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.



# Bakıda gördüyü inkişaf prosesləri Natalya Koçanovada dərin təəssürat yaradıb

## Azərbaycan Prezidenti İlham Əliyev Belarus Milli Assambleyası Respublika Şurasının sədrini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının sədri Natalya Koçanovanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Natalya Koçanova Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Aleksandr Lukaşenkoya çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əlaqələrimizin inkişaf etdiyi qeyd olundu. Keçən il Belarus Prezidentinin ölkəmizə dövlət səfəri məmnunluqla xatırlanaraq, onun münasibətlərimizin inkişafında rolu vurğulandı.

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən Natalya Koçanova Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını dedi.

Görüşdə ölkələrimizin parlamentləri arasında əlaqələrin uğurla inkişaf etdiyi qeyd olundu, Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyasının keçirilməsinin önəminə toxunuldu.

Qonaq dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.



# Bakıda Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası öz işinə başlayıb






**Fevralın 19-da Milli Məclisin inzibati binasında Asiya Parlament Assambleyasının (APA) "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusuna həsr edilmiş 15-ci plenar sessiyasının açılış mərasimi keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbirdə 35 nümayəndə heyəti, ümumilikdə isə 280 nəfərə yaxın nümayəndə iştirak edib.

15-ci plenar sessiyanın açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Açılış mərasimində çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova sessiya iştirakçılarını salamlayaraq, bu plenar sessiyada iştirak etdikləri üçün parlamentlərin və beynəlxalq təşkilatların nümayəndələrinə minnətdarlığını bildirib. O qeyd edib ki, sessiya əməkdaşlığımızı daha da inkişaf etdirmək və bu platformanı möhkəmləndirmək istiqamətində qətiyyətli niyyətimizin və sadiqliyimizin göstəricisidir.

Spiker diqqətə çatdırıb ki, tam bir il əvvəl, Azərbaycan Respublikasının Milli Məclisi Asiya Parlament Assambleyasına sədrliyi öz üzərinə götürdü. Sədrliyimiz çərçivəsində birgə fəaliyyətimizin daha da gücləndirilməsi üçün APA-nın institusional potensialının inkişaf etdirilməsi, üzvlük sıralarımızın genişləndirilməsi, mövcud qurumların fəaliyyətinin canlandırılması və səmərəliliyinin artırılması kimi bir sıra prioritetlər irəli sürdük.

Milli Məclisin Sədri bildirib ki, dünən keçirilən assambleyanın İcraiyyə Şurasının iclasında iki müraciət - Oman Sultanlığının Şura Məclisinin Assambleyanın tamhüquqlu üzvlüyünə qəbul olunması ilə bağlı müraciəti və Belarus Respublikası Milli Assambleyası Respublika Şurasının Asiya Parlament Assambleyasında müşahidəçi statusu alması üçün müraciəti nəzərdən keçirilib.

Sahibə Qafarova qeyd edib ki, İcraiyyə Şurası bu məsələlər üzrə plenar sessiyaya müvafiq tövsiyələr verib. O, plenar sessiyanın bu iki müraciətə müsbət cavab verəcəyinə, bu müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edəcəyinə və bununla da təşkilatın sıralarının genişləncəyinə inamını ifadə edib.

Sahibə Qafarova Asiya Parlament Assambleyasının sədri olaraq, hər iki parlamentin spikerinə - Şeyx Xalid bin Hilal Əl-Maavaliyə və Natalya Koçanovaya assambleyanın işinə töhfə verməyə göstərdikləri səmimi istək və təşəbbüslərinə görə təşəkkürünü bildirib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, təşkilatın institusional potensialını daha da optimallaşdırmaq məqsədilə nizamnamə sənədlərinin yenidən nəzərdən keçirilməsi və dəyişdirilməsi istiqamətində müəyyən irəliləyişlərin baş verməsindən məmnunuq. APA büdcəsinin formalaşdırılması ilə bağlı qərarın qəbul edilməsində konsensusa yaxınlaşırıq. Bu, assambleyanın imkanlarını daha da gücləndirmək və artırmaq baxımından olduqca vacibdir.

Sahibə Qafarova qeyd edib ki, ötən ilin digər bir nailiyyəti APA Bürosunun iclaslarının aktivləşdirilməsi olub. Büronun fəaliyyətinin yenidən canlandırılması ilə bağlı təklifimiz layiqincə qarşılanıb. Beləliklə, Daimi komitələrin hər bir iclası çərçivəsində büro iclasları da keçirilir və bu, təşkilatın ehtiyaclarına operativ şəkildə cavab verməyə yönəlib.

Milli Məclisin Sədri APA-nın Baş katibi Məhəmməd Rza Məcidiyə və Katibliyə təşkilatın inkişafı və məqsədlərinin irəli aparılması istiqamətində göstərdikləri daimi səylərə görə minnətdarlığını bildirib.

Spiker diqqətə çatdırıb ki, plenar iclasın mövzusu "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu"dur. Beynəlxalq siyasətdəki vəziyyəti və dünyada mövcud durumu nəzərə alsaq, çoxtərəfli əməkdaşlıq məsələsi heç vaxt bu gün olduğu qədər vacib olmayıb.

Dünyamızın qarşılaşdığı humanitar böhranlar, münaqişələr, yoxsulluq, iqlim dəyişikliyi, ayrı-seçkiliyin, irqçiliyin, ksenofobiyanın və islamofobiyanın artması kimi problemlər və onlarla necə mübarizə aparmaq məsələsi qaçılmaz şəkildə müasir beynəlxalq münasibətlər sisteminin səmərəliliyi məsələsini ön plana çıxarır. Təəssüf ki, bu gün dünya daha parçalanmış və daha az dinc hala gəlib çatmışdır. Və bir çoxları çoxtərəfli mexanizmlərin səmərəsizliyi barədə müzakirələr aparır.

Milli Məclisin Sədri fürsətdən istifadə edərək, Azərbaycanın bu məsələyə dair baxışlarını qonaqlarla bölüşüb. Spiker qeyd edib ki, beynəlxalq hüququn bütün norma və prinsiplərinə, eləcə də beynəlxalq təşkilatların qətnamə və qərarlarına baxmayaraq, beynəlxalq səviyyədə tanınmış əraziləri 30 il ərzində qonşu Ermənistan tərəfindən işğal altında saxlanılmış Azərbaycan, təəssüf ki, bugünkü sistemin səmərəsizliyinin əsas qurbanlarından biri olub. Ölkəmiz öz torpaqlarını azad edərək, ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməklə bütün bu norma, prinsip və qətnamələri təkbaşına həyata keçirib. Buna görə də bu məsələnin nə qədər təcili və vacib olduğunu çox yaxşı anlayırıq.

Sahibə Qafarova bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də vurğuladığı kimi, dünyanın hazırda həqiqətən ehtiyac duyduğu şey beynəlxalq öhdəliklərə tam hörmət olunmasıdır.

Həqiqətən də, beynəlxalq hüququn norma və prinsiplərinə əməl edilməməsi, ikili standartlar və seçici yanaşmaların tətbiqi, dövlətlərin daxili işlərinə müdaxilə bugünkü ziddiyyətlərin və gərginliklərin əsas mənbəyidir. Bəs bütün bunlara necə son qoymaq olar?




Aydın məsələdir ki, bu mənfi tendensiyanı aradan qaldırmağın və dünyada sülh, sabitlik və rifahı təmin etməyin ən etibarlı yolu çoxtərəfli sistemi gücləndirməkdir. Elə bir sistem ki, burada bütün ölkələr qaydalara hörmət edir, bir-birini kollektiv və qanuni mexanizmlərlə məsuliyyətə cəlb edir, bir-birinə dəstək göstərir və bir dövlətin maraqlarını digərindən üstün tutan birtərəfli yanaşmaları rədd edir.

Azərbaycan hər zaman bu prinsiplərə uyğun olaraq effektiv və inklüziv çoxtərəfli sistemin güclü tərəfdarı olub. Qoşulmama Hərəkatına dördillik sədrliyi dövründə Azərbaycan bu yanaşmanı aydın şəkildə nümayiş etdirib, hərəkatın institusional inkişafı üzərində fəal işləməklə yanaşı, üzv dövlətlər arasında dialoqu, əməkdaşlığı və həmrəyliyi təşviq edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycanın COP29-a evsahibliyi etmək üçün qlobal ictimaiyyət tərəfindən yekdilliklə seçilməsi və COP29 çərçivəsində Azərbaycanın liderliyi altında mühüm qərarların qəbul edilməsi, körpülər qurmaq, müxtəlif maraqlı tərəfləri bir araya gətirmək və Qlobal Şimal ilə Qlobal Cənubu bəşəriyyət üçün ortaq təhlükə olan iqlim dəyişikliyi ilə mübarizə məsələsi ətrafında birləşdirmək bacarığı ölkəmizin çoxtərəfliliyə olan sarsılmaz sadiqliyinin zirvəsi olub.

Sahibə Qafarova qeyd edib ki, parlamentimizin çoxtərəfli əməkdaşlıqda fəal iştirakı, əslində, bu yanaşmanın davamıdır. Azərbaycanın Milli Məclisi Beynəlxalq Parlament İttifaqı ilə birlikdə COP29 çərçivəsində Parlament Toplantısı təşkil etmişdir ki, bu da çoxtərəfli iqlim tədbirlərinə töhfə idi. Spiker bu görüşdə fəal iştiraklarına görə APA-nın üzv parlamentlərinə təşəkkürünü bildirib.

O, bununla yanaşı, Milli Məclisin müxtəlif parlament təşkilatlarının fəaliyyətində iştirak etdiyini və bu gün APA ilə yanaşı, daha 4 parlamentlərarası təşkilata - İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına, Türk Dövlətləri Təşkilatının Parlament Assambleyasına, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasına və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə rəhbərlik etdiyini qeyd edib. Sahibə Qafarova bildirib ki, bu fəaliyyət, parlamentimizin çoxtərəfli parlament diplomatiyasına olan güclü inamını əks etdirir.

O, xüsusilə vurğulayıb ki, Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə yaradılıb ki, bu da ölkəmizin çoxtərəfliliyə verdiyi daha bir mühüm töhfədir.

Həqiqətən də, parlamentarizmin inkişafının indiki mərhələsinin əsas məqamlarından biri odur ki, parlamentlərin fəaliyyəti artıq milli sərhədlərlə məhdudlaşmır, regional və qlobal səviyyələrə qədər uzanır. Bu isə o anlayışı əks etdirir ki, biz - parlament üzvləri olaraq, xalqlarımızın nümayəndələri kimi, hamımızı narahat edən problemlərin həlli yolunda mühüm rol oynamalıyıq. Parlamentlərarası əməkdaşlıq platformaları, daha yaxşı bir dünya naminə birgə işləmək əzmkarlığımızın və qətiyyətimizin bariz nümunəsidir. Bu baxımdan parlamentlərarası təşkilatlar konstruktiv dialoq, əməkdaşlıq və həmrəyliyin canlı təzahürüdür.

Bu mənada, Asiya Parlament Assambleyası bu məqsədlər üçün mühüm çoxtərəfli institut rolunu oynayır. Asiya regionu qlobal problemlərin həllində getdikcə daha mühüm mövqeyə sahib olur. Və bizi öz bayrağı altında birləşdirən Asiya Parlament Assambleyası səslərimizin eşidilməsinə şərait yaradır və ölkələrimizin ortaq məqsədlərə nail olması üçün göstərdiyi səylərə parlament töhfəsi verir.

Milli Məclisin Sədri çıxışının sonunda birgə səylərlə Asiya Parlament Assambleyasının potensialının tam şəkildə açılacağına, onun effektivliyinin maksimum dərəcədə artacağına inamını ifadə edib. Azərbaycan parlamentinin spikeri plenar iclasın bizim ümumi öhdəliyimizin aydın sübutu olduğunu diqqətə çatdırıb və sessiyanın işinə uğurlar arzulayıb.

Sonra Asiya Parlament Assambleyasının Baş katibi Məhəmməd Rza Məcidi çıxış edib.

Baş katib sessiyanın yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Azərbaycan Milli Məclisinə və parlamentin Sədri Sahibə Qafarovaya təşəkkürünü ifadə edib. O, ölkəmizin Asiya Parlament Assambleyasına sədrliyinin uğurla davam etdirildiyini bildirib. Qeyd edib ki, Azərbaycan tərəfinin bu təşkilata sədrliyi ilə qarşıda duran məqsədlərə birgə səmərəli əməkdaşlıq nəticəsində nail ola biləcəyik.

Məhəmməd Rza Məcidi Asiya Parlament Assambleyasının regionda sülhün, təhlükəsizliyin, etimadın gücləndirilməsinə böyük önəm verdiyini qeyd edib. Azərbaycanın üzv dövlətlər arasında əməkdaşlığın inkişaf etdirilməsinə öz töhfəsini vermək əzmində olduğunu vurğulayıb. APA-nın 15-ci sessiyasında vacib məsələlərin müzakirə ediləcəyini söyləyib.

Baş katib Asiya Parlament Assambleyasına üzv dövlətlər arasında əlaqələrin daha da möhkəmləndirilməsi, qurum çərçivəsində müxtəlif sahələr üzrə əməkdaşlığın dərinləşdirilməsi, təşkilatın genişləndirilməsi istiqamətində səylərin bundan sonra da göstəriləcəyini deyib. O, həmçinin regional münaqişələrin törətdiyi faciələrdən danışaraq onların nizamlanmasının önəmini qeyd edib.

Məhəmməd Rza Məcidi APA-nın Asiya regionunda ölkələrarası münasibətlərin inkişafı baxımından əhəmiyyətli platforma olduğunu diqqətə çatdırıb. Bu əlaqələrin gücləndirilməsində parlament diplomatiyasının xüsusi rolundan söhbət açıb. Müasir çağırışlar fonunda parlament diplomatiyasından istifadə edərək dayanıqlı inkişafa dəstək vermək, regional və qlobal əməkdaşlığı daha da dərinləşdirmək, sülhü və təhlükəsizliyi təmin etmək kimi məsələlərin vacibliyindən bəhs edib.

Sonra sessiyada Asiya Parlament Assambleyasına üzv ölkələrin parlament sədrləri, sədr müavinləri və üzvləri, o cümlədən Bəhreyn Şura Məclisinin Sədri Əli Saleh Abdulla Əlsaleh, Butan Milli Assambleyasının Sədri Lungten Dorci, İndoneziya Nümayəndələr Palatasının Sədri Puan Maharani, İran İslam Şurası Məclisinin Sədri Məhəmməd Baqir Qalibaf, Pakistan Senatının Sədri Syed Yusuf Raza Gilani, Tacikistan Ali Məclisinin Nümayəndələr Palatasının Sədri Mahmadtoir Zokirzoda, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Oman Şura Məclisinin Sədri Xalid Hilal Nasir Al Maavali, Belarus Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova, Birləşmiş Ərəb Əmirlikləri Federal Milli Şurası Sədrinin birinci müavini Tariq Humaid Mohd Altayer, Fələstin Milli Şurasının Sədr müavini Ali Faysal, İordaniya Milli Assambleyasının Nümayəndələr Palatası Sədrinin müavini Əhməd Hamisat, Tailand Nümayəndələr Palatası Sədrinin müavini Paradorn Prissananantakul, Türkiyə Böyük Millət Məclisinin üzvü Abdulkadir Emin Önen çıxış ediblər, mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Çıxışlarda tədbirin yüksək səviyyədə təşkil olunduğu qeyd edilib, Asiya Parlament Assambleyasının Azərbaycanın sədrliyi dövründə böyük uğurlar qazanacağına inam ifadə olunub. İştirakçılar bu gün APA-nın regional problemlərin həllində və regional inteqrasiyanın sürətlənməsində mühüm rolundan söhbət açıblar. Qurumun regionda davamlı inkişafın, insan hüquqlarının, sülh və sabitliyin təşviqi, çoxtərəfli əməkdaşlığın gücləndirilməsi kimi məsələlərə önəm verdiyi bildirilib, bununla bağlı ümumi məqsədlərə çatmaq üçün həyata keçirilən tərəfdaşlığın vacibliyindən bəhs edilib.

Tədbir iştirakçıları müasir dünyada təhlükəsizliyin təmin olunmasının böyük əhəmiyyət kəsb etdiyini nəzərə çatdıraraq, bunun qarşılıqlı dialoq və konstruktiv əməkdaşlıq sayəsində mümkün olduğunu vurğulayıblar. Asiya Parlament Assambleyasına Azərbaycanın uğurlu sədrliyindən bəhs edən çıxışçılar qurumun öz fəaliyyətində sabitliyin və əməkdaşlığın möhkəmləndirilməsində əhəmiyyətli rola malik olduğunu, regionda və dünyada sülhün, əmin-amanlığın bərqərar edilməsi ilə bağlı məsələlərin həllinə töhfə verdiyini söyləyiblər.

Bildirilib ki, qurum üzv ölkələr arasında qarşılıqlı etimadın və həmrəyliyin möhkəmləndirilməsi, beynəlxalq terrorizm, separatçılıq, ekstremizmlə mübarizədə, kibercinayətkarlığın qarşısının alınmasında, informasiya təhlükəsizliyinin təmin edilməsində qarşılıqlı əməkdaşlıq, regional və ikitərəfli münasibətlərin gücləndirilməsi məsələlərinə böyük önəm verir. Habelə müasir dünyada xalqların suveren hüquqlarının müdafiəsi, sosial ədalət və bərabərlik prinsiplərinə əməl edilməsinin vacibliyi vurğulanıb. APA-nın bu gün qlobal çağırışlar, o cümlədən iqtisadi qeyri-sabitlik, geosiyasi gərginlik dövründə çoxtərəfli əməkdaşlığın möhkəmləndirilməsində mühüm platforma olduğu söylənilib. Eyni zamanda iqlim dəyişikliyi və ətraf mühitin qorunması ilə bağlı çağırışların vacibliyindən bəhs edilərək, ötən il Azərbaycanın evsahibliyi ilə yüksək səviyyədə keçirilmiş COP29 tədbirində əhəmiyyətli təşəbbüslərin verildiyi, mühüm qərarların qəbul edildiyi diqqətə çatdırılıb.

Bununla yanaşı qeyd olunub ki, təşkilat üzv ölkələrin parlament strukturları arasında əməkdaşlığın gücləndirilməsini əhəmiyyətli hesab edir. 15-ci plenar sessiyanın müzakirəsinə çıxarılan mövzunun bu baxımdan aktuallığı və böyük önəm kəsb etdiyi, konstruktiv dialoq üçün yaxşı imkanlar yaratdığı qeyd olunub. Üzv ölkələr arasında qurum çərçivəsində eyni zamanda ikitərəfli qaydada münasibətlərin inkişafında parlament diplomatiyasının vacibliyi vurğulanıb. Qanunverici orqanlar arasında təcrübə mübadiləsindən, nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əlaqələrin möhkəmləndirilməsində əhəmiyyətindən danışılıb. Parlament diplomatiyasının qlobal səviyyədə bütün proseslərə təsir göstərmək imkanına malik olduğu söylənilib. Milli parlamentlərin gündəmdə olan regional və qlobal məsələlərlə bağlı vahid mövqe nümayiş etdirməsinin önəmindən danışılıb. Bildirilib ki, Asiya xalqları arasında bütün sahələrdə əməkdaşlığın gücləndirilməsi, ölkələrin davamlı inkişafının təşviq edilməsi, sülhün, sabitliyin təmin edilməsində parlamentlər bundan sonra da öz layiqli töhfəsini verəcək.

Çıxışlarda həmçinin qurumun digər beynəlxalq və regional təşkilatlarla əlaqələrinə toxunulub, üzv dövlətlərin beynəlxalq qurumlarda əməkdaşlığının əhəmiyyətindən söhbət açılıb. APA-nın Asiyada iqtisadi tərəqqiyə nail olmaq, sülh və təhlükəsizliyin daha da möhkəmləndirilməsi istiqamətində gələcəkdə də öz səylərini əsirgəməyəcəyinə əminlik ifadə edilib.

Fasilədən sonra öz işini davam etdirən plenar sessiyada gündəlik qəbul edilib. APA-nın Bürosu seçilib.

Sessiyada Milli Məclisin APA-da nümayəndə heyətinin rəhbəri, qurumun İcraedici Şurasının sədri Rizvan Nəbiyev məruzə ilə çıxış edib.

Tədbirdə APA-nın Baş karibi Məhəmməd Rza Məcidi qurumun fəaliyyəti ilə bağlı hesabatı təqdim edib.

Sessiyada həmçinin Oman Sultanlığına tamhüquqlu üzv statusunun, Belarus Respublikasına müşahidəçi statusunun təqdim olunması ilə bağlı məsələlərə baxılıb.

Yığıncaqda "Asiyada çoxtərəfli əməkdaşlığın gücləndirilməsində parlament diplomatiyasının rolu" mövzusunda müzakirələr davam etdirilib.

Həmin gün eyni zamanda plenar sessiya çərçivəsində APA-nın Sosial və mədəni məsələlər, Büdcə və planlaşdırma daimi komitələrinin iclasları da keçirilib, bu komitələrin profilinə uyğun məsələlərə dair qərar layihələri müzakirə olunub.

APA-nın 15-ci plenar sessiyası öz işini davam etdirəcək.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

# *Tənzilə NARBAYEVA:* "Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurlar heyrətamizdir"




**Fevralın 19-da Milli Məclisin Sədri Sahibə Qafarova Bakıda keçirilən Asiya Parlament Assambleyasının (APA) 15-ci plenar sessiyasında iştirak etmək üçün Azərbaycanda səfərdə olan Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva ilə görüşüb.**

Spiker Sahibə Qafarova bildirib ki, Azərbaycan və Özbəkistan dost və qardaş ölkələrdir. Bizi ümumi tarixi, mədəni dəyərlər birləşdirir. İki ölkə arasında münasibətlər bu gün Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan dövlətinin başçısı Şavkat Mirziyoyevin rəhbərliyi ilə uğurla inkişaf etdirilir. Ölkələrimiz arasındakı bu yaxınlıq siyasi, iqtisadi, mədəni və digər sahələrdə də özünü göstərir.

Söhbət zamanı Milli Məclisin Sədri dəvəti qəbul edərək ölkəmizdə keçirilən APA-nın 15-ci plenar sessiyasında iştirakına görə qonağa təşəkkür edib. Bildirib ki, dünyada baş verən mürəkkəb siyasi proseslər fonunda münasibətlərimizin inkişafı xalqlarımızın ümumi mənafelərinə xidmət edir. Vurğulanıb ki, ölkə başçılarımızın dostluğu qarşılıqlı əlaqələrimizin daha da yaxınlaşmasına mühüm töhfələr verir.

Sahibə Qafarova Özbəkistanın Azərbaycanın işğaldan azad olunmuş Füzuli rayonunda məktəb tikintisi həyata keçirməsinin ölkəmizdə yüksək qiymətləndirildiyini və bunun qardaşlıq münasibətinin təzahürü olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri qanunverici orqanlar arasında da əməkdaşlığın uğurla inkişaf etməsindən məmnunluqla danışıb, bu sahədə Azərbaycan və Özbəkistan parlamentlərində fəaliyyət göstərən parlamentlərarası dostluq qruplarının xüsusi rolunu qeyd edib.

Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva APA-nın sessiyasına dəvətə görə təşəkkürünü bildirib.

Qonaq qeyd edib ki, Azərbaycanın Prezident İlham Əliyevin rəhbərliyi ilə qazandığı uğurlar heyrətamizdir. Azərbaycanın təşəbbüsü ilə keçirilən tədbirlər qlobal xarakter daşıyır. Tənzilə Narbayeva COP29 kimi mühüm qlobal tədbirin Azərbaycan tərəfindən yüksək səviyyədə təşkilini və keçirilməsini yüksək dəyərləndirib. O, Özbəkistanda Parlamentlərarası İttifaqın 150-ci Baş Assambleyasının keçiriləcəyini diqqətə çatdırıb və iclasda Azərbaycan nümayəndə heyətinin də iştirak edəcəyinə inamını ifadə edib.

Qonaq bildirib ki, iki ölkə başçısının yaxın şəxsi münasibətləri parlamentlərimizə də sirayət edir. Dil və mədəniyyət yaxınlığımız isə əməkdaşlığımızın daha da dərinləşməsinə möhkəm zəmin yaradır. Tənzilə Narbayeva qeyd edib ki, Azərbaycanın Qoşulmama Hərəkatındakı təcrübəsi Özbəkistan üçün də böyük əhəmiyyət kəsb edir.

Söhbət zamanı qonaq Azərbaycanın təşkilata rəhbərliyi dövründə Qoşulmama Hərəkatının institusional inkişafı üçün mühüm işlər gördüyünü və onların qlobal xarakter daşıdığını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Qətər Azərbaycanla əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verir



**Fevralın 19-da Milli Məclisin Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupunun ölkəmizdə səfərdə olan Qətər parlament nümayəndə heyəti ilə görüşü keçirilib.**

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Qətər ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Tahir Rzayev qonaqları salamlayaraq, onların APA-nın Milli Məclisin evsahibliyi ilə keçirilən 15-ci plenar sessiyasında iştirakına görə təşəkkürünü bildirib. Ölkələrimiz arasındakı münasibətlərdən məmnunluqla söz açan komitə sədri deyib ki, Azərbaycan-Qətər dostluğu tarixi ənənələrə əsaslanır.

Tahir Rzayev Azərbaycan və Qətər Dövlətinin regional və beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq etdiyini vurğulayıb, parlamentlərimiz arasında səmərəli əlaqələrin olduğunu bildirib, bu münasibətlərin daha da dərinləşdirilməsi imkanlarının mövcudluğunu diqqətə çatdırıb.

Qətər parlamentinin Azərbaycanla dostluq qrupunun rəhbəri Əhməd Hitmi Əl-Hitmi APA-nın sessiyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkürünü bildirib, ölkələrimiz arasındakı əlaqələrin yüksələn xətt üzrə inkişaf etməsindən danışıb. O, Asiya Parlament Assambleyası çərçivəsində artıq bir sıra məsələlərin həllini tapdığını məmnunluqla qeyd edib. Bildirib ki, Qətər APA-ya üzv dövlətlərlə, xüsusən də Azərbaycanla müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsinə böyük önəm verir.

Görüşdə Milli Məclisin Azərbaycan-Qətər parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Anar İsgəndərov, Nigar Məmmədova, Pərvanə Vəliyeva, Vüqar Rəhimzadə və Qətər Şura Məclisinin üzvü Səud bin Casim əl-Buayneyn çıxış ediblər. Çıxış edənlər Azərbaycan və Qətər Dövləti arasında parlamentlərarası əlaqələrin inkişaf perspektivləri ilə bağlı fikirlərini bölüşüblər.

Söhbət tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi ilə davam etdirilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Belarus Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova İçərişəhərdə olub

**Ölkəmizdə rəsmi səfərdə olan Belarus Milli Assambleyası Respublika Şurasının Sədri Natalya Koçanova İçərişəhərlə tanış olub.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, burada qonağa UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu, həmçinin burada aparılan təmir, abadlaşdırma və bərpa işləri barədə ətraflı məlumat verilib.

Daha sonra qonaq Orta əsr Şərq memarlığının şah əsəri, dünya əhəmiyyətli tarixi-memarlıq abidəsi olan Şirvanşahlar Sarayı Kompleksi ilə tanış olub.

Məlumat verilib ki, XV əsrin əvvəllərində inşa olunmuş tarixi abidənin tikililəri İçərişəhərin təpələrindən birinin ən hündür nöqtəsində yerləşir. O, Xəzər dənizindən və şəhərin ətrafındakı yüksəkliklərdən aydın görünür. Kompleks bu günədək öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır.

Gəzinti zamanı Natalya Koçanova "Brilyant əl" bədii filminin məşhur epizodlarından birinin çəkildiyi küçə ilə də tanış olub.

İçərişəhər Ənənəvi İncəsənət Mərkəzinin "Dastan" brendi qonaqda böyük maraq doğurub.

Sonra Natalya Koçanova Bakıda fəaliyyət göstərən "Belaruski" ticarət mərkəzinə də baş çəkib. O, burada mərkəzin fəaliyyəti ilə tanış olub, əməkdaşları ilə söhbət edib.

*"Azərbaycan"*

# Konstitusiya Məhkəməsi hakimlərinin vəzifədə olmasının yaş həddi artırılır

**Fevralın 19-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin videokonfrans formatında iclası keçirilib. İclası açan komitənin sədri Əli Hüseynli gündəliyə 5 məsələnin daxil edildiyini bildirib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, əvvəlcə "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi birinci oxunuşda müzakirəyə təqdim olunub. Komitənin üzvü Nizami Səfərov məsələyə dair məlumat verib.

Bildirilib ki, dəyişikliyə əsasən, Konstitusiya Məhkəməsi hakimlərinin vəzifədə olmasının yaş həddinin 70-dən 75-ə artırılması qərara alınıb. Layihə uzunmüddətli hüquqi təcrübəyə malik hüquqşünasların Konstitusiya Məhkəməsində fəaliyyətini davam etdirməsinə şərait yaradaraq məhkəmə sisteminin səmərəliliyini artırmaq məqsədilə hazırlanıb.

Daha sonra iclasda iştirak edən rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Elmin Məmmədov gündəliyin ikinci məsələsi - Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib.

Qeyd edilib ki, layihə bir sıra qanun layihələrinin və "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununun icrası ilə əlaqədar hazırlanıb. Nazir müavini söyləyib ki, yeni qanunda aviasiya hadisələrinin və insidentlərinin araşdırılmasının təşkilinə, aviasiya personalına dair, mülki aviasiya sahəsində sığorta və mülki hava gəmilərinin istismar edilməsinə dair tələblər öz əksini tapıb. Layihədə həmçinin dəmir yolu nəqliyyatında hərəkətin təhlükəsizliyi qaydaları əleyhinə olan bəzi inzibati xətaların dispozisiyalarının təkmilləşdirilməsi və sanksiyadakı cərimə məbləğinin artırılması nəzərdə tutulub.

Əli Hüseynli gündəliyin üçüncü məsələsi "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanunun layihəsi ( birinci oxunuş) barədə məlumat verib. Dəyişikliyə əsasən diplomatik korrespondensiyanın daşınması qaydasının müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcəyi qeyd olunub.

Sonra gündəliyin digər 2 məsələsi - Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Valyuta tənzimi haqqında", "Kommersiya sirri haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Banklar haqqında", "Sığorta fəaliyyəti haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli Qanununun icrası ilə əlaqədar bəzi qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri nəzərdən keçirilib.

Sonra təqdim olunan məsələlər barədə komitənin üzvləri Bəhruz Məhərrəmov və Nurlan Həsənov fikir və qeydlərini söyləyiblər.

Onlayn iclasda təqdim edilən qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə olunub.

Onlayn iclasda komitənin sədr müavini Elşən Musayev, üzvləri Kamal Cəfərov, Sabir Hacıyev, Mübariz Qurbanlı, Milli Məclisin Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyid və digər rəsmi şəxslər iştirak ediblər.

*"Azərbaycan"*

# BƏƏ-nin Prezidenti Azərbaycanın istehsal etdiyi hərbi məhsullarla tanış olub

**Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyan Əbu-Dabi şəhərində keçirilən "IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisində Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi Qapalı Səhmdar Cəmiyyətinin stendini ziyarət edib.**

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildirilib ki, müdafiə sənayesi naziri Vüqar Mustafayev BƏƏ-nin Prezidentinə sərgidə nümayiş olunan Azərbaycanın istehsal etdiyi hərbi məhsullar haqqında ətraflı məlumat verib. Dövlət başçısı "IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisində fəal iştirak edən Azərbaycanın nümayəndə heyətinə uğurlar arzulayıb.



Daha sonra İtaliyanın müdafiə naziri Quido Krosetto Azərbaycan istehsalı olan müdafiə təyinatlı məhsullara baxıb. Nazirə yerli məhsullar haqqında ətraflı məlumat verilib.

Qeyd edək ki, sərgi çərçivəsində nazir V.Mustafayev BƏƏ-nin müdafiə işləri üzrə dövlət naziri Məhəmməd bin Mübarək Fadel Əl Mazrouei, "EDGE Group" şirkətinin İdarə Heyətinin sədri Faysal Əl Bannai, "Tawazun" şurasının baş katibi Nasser Al Nuaimi və Çin Xalq Respublikasının "CETC International" şirkətinin rəhbərliyi ilə görüşüb.

Görüşlərdə müdafiə sənayesi sahəsində əməkdaşlıq imkanları müzakirə edilib, maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

"IDEX 2025" Beynəlxalq Müdafiə Sərgisi fevralın 21-dək davam edəcək.

# Müdafiə Nazirliyinin rəhbərliyi Quru Qoşunlarının komanda-qərargah təlimini izləyib

**Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbər heyəti 2025-ci ilin hazırlıq planına əsasən, Quru Qoşunlarında keçirilən komanda-qərargah təlimini izləyib.**



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xəritə üzərində tapşırıqlar dəqiqləşdirildikdən sonra komandir heyətinin qərarlara dair müvafiq məruzələri dinlənilib.

Müdafiə naziri bölmələrin müxtəlif döyüşə hazırolma vəziyyətlərinə gətirilməsi zamanı komandirlərin qərar qəbuletmə və idarəetmə bacarıqlarının təkmilləşdirilməsi, qərargahlar və bölmələr arasında qarşılıqlı əlaqənin təmin olunması məqsədilə keçirilən təlimin gedişatını müsbət qiymətləndirib. General-polkovnik Z.Həsənov şəxsi heyətin peşəkarlığının və döyüş hazırlığının daha da təkmilləşdirilməsi məqsədilə aidiyyəti vəzifəli şəxslər qarşısında konkret tapşırıqlar qoyub.

# Prokurorluq əməkdaşlarına və media qurumlarına mükafatlar təqdim olunub






**Baş Prokurorluqda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən həvəsləndirilmiş, habelə "İlin ən yaxşı müstəntiqi", "İlin ən yaxşı dövlət ittihamçısı" və "İlin ən yaxşı prokuroru" müsabiqələrinin qalibi olmuş prokurorluq işçilərinə, eləcə də "Prokurorluğun dostu" mükafatına layiq görülmüş media nümayəndələrinə mükafatların təqdim olunması ilə bağlı fevralın 19-da tədbir keçirilib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, əvvəlcə Birinci Qarabağ, 44 günlük Vətən müharibələri və Qarabağ iqtisadi rayonunda keçirilmiş antiterror tədbirləri zamanı ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərin, həlak olmuş vətəndaşların əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev 2024-cü ilin ölkəmiz üçün uğurlu il olmaqla yanaşı, çoxsaylı əlamətdar hadisələrlə yadda qalmasını qeyd edib, ötən ilin əvvəllərində Prezident İlham Əliyevin növbədənkənar prezident seçkilərində mütləq səs çoxluğu ilə qalib gəlməsini, o cümlədən xilaskarlıqdan qalibiyyətə yüksələn Zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmizin sürətli hərtərəfli inkişafının davam etməsini, ölkəmizin regional və beynəlxalq nüfuzunun daha da artmasını xüsusi vurğulayıb.

Qeyd edilib ki, işğaldan azad edilmiş ərazilərdə Prezident İlham Əliyevin rəhbərliyi və onun ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə bərpa və quruculuq işləri uğurla davam etdirilməklə Ağdam, Xocalı rayonlarında və Xankəndi şəhərində ölkə rəhbəri tərəfindən kəndlərin və qəsəbələrin təməli qoyulmaqla, eyni zamanda çoxsaylı ictimai, iaşə, yaşayış, kommunikasiya obyektlərinin açılışları olub. Həmçinin Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi respublikamızda gəncliyin inkişaf yoluna işıq salmaqla, gənclərin dövlət quruculuğunda və idarəçiliyində, bir sözlə, ictimai həyatın bütün sahələrində onların güclü sosial təbəqəyə çevrilməsinə səbəb olub.

Mərasim zamanı Prezident İlham Əliyevin 30 sentyabr 2024-cü il tarixli sərəncamı ilə təltif edilmiş prokurorluq əməkdaşlarına, habelə baş prokurorun müvafiq əmri ilə xidməti vəzifələrini nümunəvi icra etməsinə görə həvəsləndirilmiş prokurorluq əməkdaşlarına mükafatlar təqdim olunub.

Daha sonra "İlin ən yaxşı müstəntiqi", "İlin ən yaxşı prokuroru" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin təşkili və keçirilmə qaydaları barədə müvafiq olaraq baş prokurorun birinci müavini Elçin Məmmədov, baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov çıxışlar edərək ətraflı məlumatlar veriblər.

Müsabiqələrin nəticələrinə əsasən "İlin ən yaxşı müstəntiqi" seçilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq idarəsinin mühüm işlər üzrə müstəntiqi Kənan Nəzərova, "İlin ən yaxşı dövlət ittihamçısı" seçilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Apellyasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Bakı Apellyasiya Məhkəməsi üzrə prokuroru Anar Ələkbərova və "İlin ən yaxşı prokuroru" seçilmiş Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin böyük prokuroru Yelena Qasımovaya baş prokuror tərəfindən diplomlar və mükafatlar təqdim olunub.

Bundan başqa, tədbir çərçivəsində "Prokurorluğun dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşma, o cümlədən vətəndaş məmnunluğunun və fəaliyyətdə aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə media ilə işgüzar əlaqələrin möhkəmləndirilməsi prioritet vəzifələrdən biri hesab edilir.

Qeyd edilib ki, həmin tədbirlər çərçivəsində 2024-cü ilin yekunlarına əsasən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılması, prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulmasında fərqlənən "CBC" teleradio şirkətinin baş direktoru Vüqar Xəlilov, "Caliber.az" informasiya-analitik portalının baş redaktoru Timur Hüseynov və "Azərbaycan" qəzetinin ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Bəxtiyar Əzizli "Prokurorluğun dostu" mükafatı ilə təltif olunub.

# Azərbaycan və Türkiyə arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 5 illiyi ilə bağlı "dəyirmi masa" keçirilib



**Fevralın 19-da Azərbaycan Respublikasının Sosial Tədqiqatlar Mərkəzi (STM), Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin Bakı Mətbuat Müşavirliyi və Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumunun 5 ili: Birgə fəaliyyətə baxış, gələcək hədəflər" mövzusunda "dəyirmi masa" tədbiri keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbirin açılışında Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri, deputat Zahid Oruc Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinə diqqət çəkib: "Qlobal dəyişikliklər və yeni dünya təhlükəsizliyi arxitekturasının axtarıldığı bir dövrdə Azərbaycan və Türkiyə mediasının bir araya gəlməsi mühüm hadisədir. Qürurlu tarixə malik Azərbaycan-Türkiyə sarsılmaz birliyi mürəkkəb formasiya və quruluşlardan keçərək son 5 ildə yeni zirvələrə yüksəlib. Bunun başlıca səbəbi isə hər iki ölkənin liderləri arasındakı sarsılmaz qardaşlıq münasibətləridir. Düşünürəm ki, növbəti illər ərzində bu münasibətlər özünün ən yüksək zirvəsinə çatacaq".

Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın güclü siyasi iradəsi nəticəsində iki ölkə arasında daha da möhkəmlənən qardaşlıq münasibətləri və regionumuzun inkişafına ciddi töhfə verən intensiv əlaqələr media sahəsi də daxil olmaqla, bütün sahələrə öz dinamik təsirlərini göstərir.

Hər iki ölkənin liderlərinin qarşılıqlı səfərlərinin dövlətlərimiz arasında əlaqələrin və strateji tərəfdaşlığın inkişaf etdirilməsi baxımından mühüm tarixi hadisə olduğuna diqqət çəkən icraçı direktor qeyd edib ki, bu səfərlər, habelə səfər çərçivəsində imzalanan sənədlər Azərbaycan və Türkiyə xalqları arasında dostluğun, qardaşlığın əyani təzahürüdür.

"Bizim ortaq dəyərlərimiz və bir-birini tamamlayan məqsədlərimiz əlaqələrimizi gücləndirməklə yanaşı, cəmiyyətlərimizi informasiya ilə təmin etmək kimi vacib funksiyanı yerinə yetirən yerli medianın fəaliyyətində də canlanma yaradıb, ölkələrimizin media nümayəndələrinin, subyektlərinin, həmçinin sahə ilə əlaqədar aidiyyəti qurumların daha sıx və peşəkar münasibətlərinin qurulmasına böyük təkan verib.

Eyni zamanda Azərbaycan və Türkiyə arasındakı strateji münasibətlərin inkişaf dinamikasına uyğun olaraq istər milli media subyektlərimiz, istərsə də aidiyyəti qurumlar xalqlarımızın mənəvi dəyərlərinin təbliği, dövlət maraqlarımızın müdafiəsi, o cümlədən informasiya mühitimizi dezinformasiyalardan qorumaq məqsədilə medianın etik prinsipləri əsasında daha peşəkar fəaliyyət göstərmək üçün əzmlə çalışır.

Anlaşma Memorandumunun 5 illik yubileyini qeyd edərkən, əminəm ki, əməkdaşlığımız gələcək illərdə yeni layihələr və təşəbbüslərlə daha da zənginləşəcək. İki ölkənin media sahəsinə məsul qurumları arasında bilik və təcrübə mübadiləsi, birgə layihələrin həyata keçirilməsi və informasiya təhlükəsizliyinin təmin edilməsi kimi məsələlərdə əməkdaşlıq imkanları daha da artırılacaq", - deyə icraçı direktor bildirib.

Daha sonra çıxış edən Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün Azərbaycan və Türkiyə arasında olan sıx əməkdaşlıqda hər iki ölkənin dövlət başçılarının güclü liderliyi və bənzəri olmayan qardaşlığının mühüm rol oynadığını deyib: "Dünyada Azərbaycan və Türkiyə kimi sıx əlaqədə olan başqa dövlətlər yoxdur. Hər iki ölkənin sevinci və kədəri birdir. Gələcək illərdə ölkələrimizin media subyektləri və nümayəndələri arasında qardaşlıq əlaqələrinin daha da genişlənəcəyinə inanıram".

Tədbirdə media nümayəndələri, həmçinin tədbir çərçivəsində keçirilən panellərdə media orqanlarının və aparıcı media subyektlərinin rəhbərləri çıxış edib.

Türkiyə və Azərbaycan Media Platforması çərçivəsində təşkil olunan tədbirdə iki ölkə arasında media sahəsində əməkdaşlığın cari vəziyyəti, əldə olunan nailiyyətlər və gələcək perspektivlər müzakirə olunub.

Qeyd edək ki, "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" Türkiyə Prezident Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fəxrəddin Altun və Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev tərəfindən imzalanıb. Sənədin imzalanması ilə Türkiyə-Azərbaycan ortaq media platforması yaradılıb.

# Təxribatların himayədarı - USAID

## ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin çirkin oyunları ilə bağlı yeni faktlar üzə çıxır

**ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinə (USAID) qarşı bu ölkənin rəhbərliyi tərəfindən başlayan hərəkat artıq dünyada böyük əks-səda doğurub. Deмək olar ki, hər gün yeni faktlar üzə çıxır. Bu faktlara əsasən, ABŞ-də maliyyə maxinasiyalarına, böhtan kampaniyalarına cəlb edilən media vasitələrinin siyahısı, eləcə də müxtəlif təxribatların həyata keçirildiy ölkələrin adları açıqlanır.**

Bəlli olur ki, bu təşkilat müxtəlif ölkələrdə "humanitar yardım" adı altında qarşıdurmaların yaradılmasına, dövlət əleyhinə kampaniyaların təşkilinə, müxtəlif lobbiçilik fəaliyyətlərinin inkişafına, terror təşkilatlarına külli miqdarda vəsaitlər ayırıb. Bununla yanaşı, əsas təsir vasitələrindən olan media və QHT-lərin qanunsuz maliyyələşdirilməsi də USAID-in əsas istiqamətlərindən olub. Təşkilat bununla həmin ölkələrin daxili işlərinə qarışmaqla öz məqsədinə uyğun ictimai rəy formalaşdırmağa çalışıb.

Umumiyyətlə, USAID formal olaraq müstəqil dövlət agentliyi hesab olunsa da, birbaşa ABŞ prezidenti, dövlət katibi və Milli Təhlükəsizlik Şurasının tabeçiliyində idi. Onun rəhbəri və müavinləri ABŞ Senatının razılığı ilə ABŞ Prezidenti tərəfindən təyin olunur(du). Maliyyə vəsaitinin həcminə görə dünyanın ən öndə gedən təşkilatıdır, desək, yanılmarıq. Rəqəmlərə diqqət edək: 2024-cü maliyyə ilində USAID layihələri üçün 36 milyard dollara yaxın vəsait ayrılıb. Son 9 ildə isə ümumilikdə USAID xətti ilə 335 milyard dollar xərclənib. Bu, az qala orta səviyyəli dövlətin illik büdcəsindən 10 dəfə çoxdur. Dünyanın 100-dən artıq ölkəsində nümayəndəliyi və 10 mindən artıq əməkdaşı olan USAID guya ehtiyacı olan ölkələrə humanitar yardım, iqtisadiyyat, səhiyyə, təhsilə, demokratiya sahələrinə dəstəklə məşğul olsa da, əslində, onun fəaliyyəti bütün dünya üzrə QHT və medianı qanunsuz maliyyələşdirməklə ölkələrin daxili işlərinə qarışmağa, ictimai rəyə təsir imkanları qazanmağa və bu rıçaqlardan təzyiq və hətta dövlət çevrilişləri üçün istifadə etməyə, müstəqil dövlətlərdə qanuni seçilmiş hakimiyyətləri devirməyə yönəlib.

Çoxsaylı faktlar da göstərir ki, Amerikanın xarici yardımı və inkişaf proqramlarının idarə edilməsinə cavabdeh olan agentlik missiyasından tamam fərqli işlərlə məşğul olub. Agentlik həm də media orqanlarına ayırdığı vəsaitlə çirkin fəaliyyətini KİV vasitəsilə həyata keçirib. Onların sırasında "Azadlıq radiosu" və "Amerikanın səsi" kimi media orqanları da var. "Soyuq müharibə" dövründə ABŞ-nin ideoloji mübarizəsində təbliğat vasitəsi kimi istifadə olunan "Azadlıq radiosu" və "Amerikanın səsi" kimi Amerikanın dövlət media orqanları da uzun illərdir ki, təyinatları üzrə yox, başqa ölkələrin daxili işlərinə müdaxilə və digər məqsədlər üçün istifadə edilir. Özü də bu media qurumlarına hər il yüz milyonlarla vəsait sərf olunur və bu pulların da göyə sovrulduğunu yenə ABŞ hökuməti özü bəyan edir. Lakin siyahı təkcə bununla bitmir.

Keçmiş dövlət başçısı Co Baydenin prezidentliyi dönəmində ABŞ hökuməti "Reuters" agentliyinə də hər il milyonlarla dollar ayırıb. "Reuters" isə öz növbəsində verilən sifarişləri icra edib, dünya ictimaiyyətində müxtəlif məsələlər üzrə ABŞ hökumətinin istədiyi formada yanlış rəy yaradılması ilə məşğul olub. Təkcə Pentaqon hər il "Reuters"ə 9 milyon dollar ayırıb. Alınan pulların əvəzində "Reuters" dünya ictimaiyyətinə saxta məlumatlar sırıyıb, konkret ölkələri, qurumları, şəxsləri hədəfə alıb, onlar barəsində qarayaxma, böhtan kampaniyası aparıb. Bununla bağlı xeyli sayda faktlar mövcuddur. Amma ABŞ hökumətinin pulları yalan və iftira naminə təkcə "Reuters" vasitəsilə israf edilməyib.

ABŞ Dövlət İdarəetməsinin Səmərəliliyi Departamentinin rəhbəri İlon Mask bildirib ki, Prezident Donald Trampın administrasiyası "Politico", "The New York Times" və "Associated Press" kimi media vasitələrinin maliyyələşdirilməsini ləğv edib. O qeyd edib ki, "Politico" Dövlət Departamentindən hər il 620 min dollar, digər nəşrlər isə Səhiyyə və Sosial Xidmətlər Nazirliyindən on milyonlarla dollar alıb. Mask həmçinin qeyd edib ki, ABŞ Maliyyə Nazirliyi hər il naməlum şəxslərə 100 milyard dollar müavinət ödəyir . O, bu vəziyyəti "dəlilik" adlandırıb. Eyni zamanda yeni hökumətin Maliyyə Nazirliyi bu ödənişlərin təxminən yarısının aşkar saxtakarlıq olduğunu etiraf edib.

Bununla yanaşı, agentlik terrorçu təşkilatları da maliyyələşdirib. ABŞ hakimiyyəti USAID-in "Əl-Qaidə" təşkilatı üçün 10 min nəfərlik yemək alınması, Kolumbiyada transgender operası, Peruda transgender komiksləri, İrlandiyada LGBT müzikl, Serbiyada işçi kollektivlərdə və işgüzar dairələrdə bərabərliyin və inklüzivliyin irəliləməsi, Qvatemalada cinsin dəyişdirilməsi və LGBT fəallığı və digər proqramları maliyyələşdirdiyinin üstünü açıb. USAID-in "Əl-Qaidə"nin gələcək lideri Ənvər əl-Əvlakinin kollec təhsilinin maliyyələşdirməsi ilə bağlı xəbər də artıq təsdiqini tapıb.

Agentlik həmçinin bəzi postsovet ölkələrində hərbi-bioloji fəaliyyətlərdə iştirak edib. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, USAID bəzi keçmiş sovet ölkələrində təxribatçı fəaliyyətlərlə məşğul olub. Onun sözlərinə görə, söhbət ABŞ-nin dövlətlərə sanitar-epidemioloji nəzarət sistemlərini inkişaf etdirməyə və bioloji terrorizm təhlükələrinə qarşı mübarizəyə kömək adı altında həyata keçirdiyi hərbi-bioloji fəaliyyətindən gedir. "Bildiyiniz kimi, belə təhlükəli fəaliyyətlər dünyanın bir çox ölkələrində, o cümlədən keçmiş SSRİ-nin bəzi respublikalarında həyata keçirilib", - Zaxarova qeyd edib. Rusiya rəsmisi iddia edib ki, ABŞ-nin Ukraynadakı belə fəaliyyətləri faktlarla sübuta yetirilib. Zaxarova əlavə edib ki, USAID-in ABŞ-nin hərbi bioloji fəaliyyətlərində iştirakını göstərən sənədlər və ətraflı hesabatlar var.

Araşdırmalar aparıldıqca agentliyin bir çox ölkələrdəki layihələri maliyyələşdirdiyi faktları ortaya çıxır. Son günlər Avropanın bəzi ölkələrində də agentliyin "izi" tapılıb.

Bosniya və Herseqovinada hakimiyyət USAID-in fəaliyyəti ilə bağlı daxilində araşdırmaya başlayacağını bəyan edib. Ölkənin maliyyə və xəzinə naziri Srdan Amidziç ABŞ Beynəlxalq İnkişaf Agentliyinin ölkədəki fəaliyyəti və xərcləmələri ilə bağlı araşdırma aparılmasına göstəriş verdiyini açıqlayıb. Jurnalistlərə açıqlamasında Amidziç USAID ilə bağlı iddialardan sonra ictimaiyyəti məlumatlandırma ehtiyacı hiss etdiklərini bildirib. Amidziç ABŞ rəhbərliyinin verdiyi açıqlamadan USAID-in Bosniya və Herseqovinaya 402 milyon dollar göndərdiyini öyrəndiklərini və buna əsasən belə qərar verdiklərini bildirib: "Ancaq USAID-in Bosniya və Herseqovinada göstərdiyi xərclər cəmi 155 milyon 820 min dollar təşkil edir. Bu halda 246 milyon 180 min dolların hara getdiyinə, nəyə xərcləndiyinə və bu pulun necə idarə olunduğuna dair heç bir məlumat və ya iz yoxdur. Bundan əlavə, USAID-in açıqladığı 54 layihəyə xərclənən 155 milyon 820 min dollar vəsaitin necə və hansı məqsədlə istifadə edildiyi ilə bağlı da heç bir izahat yoxdur".

Bosniyalıların pullarının hara getdiyini bilmək hüququna malik olduğunu deyən Amidziç USAID-in iş üsulunu "qəribə" adlandırıb. Digər tərəfdən, Serb Respublikasının prezidenti Milorad Dodik açıqlamasında USAID və ABŞ-nin Sarayevo səfirliyinin xərcləri ilə bağlı araşdırmalara başlanılacağını bildirib.

Artıq dünya dövlətləri USAID təhlükəsini görür və Tramp administrasiyasının qərarı birmənalı şəkildə dəstəklənir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*





## "Böyük qayıdış" proqramı sürətlə icra olunur







# Prezidentin növbəti Qarabağ səfəri

## Böyük qayıdış proqramının icrası davam edir

**Prezident İlham Əliyevin Zəfərdən sonra Qarabağa və Şərqi Zəngəzura etdiyi səfərlər Azərbaycan üçün tarixdir, yaddaşdır, fəxr olunacaq hadisələrdir. Həmin səfərləri şərtləndirən ən əsas amil isə Böyük qayıdışın reallaşması istiqamətində nəzərdə tutulan layihələrin icrasıdır. Ötən 4 ildə dövlət başçısı işğaldan azad olunmuş ərazilərdə onlarla sənaye və kənd təsərrüfatı obyektinin, digər infrastruktur layihələrinin təməlini qoyub, açılışını edib.**

Məlumdur ki, Azərbaycanın 2030-cu ilədək 5 milli prioritetindən biri Böyük qayıdış proqramının icrasıdır. Təbii ki, 4 ildə İlham Əliyevin rəhbərliyi ilə regionda xeyli yaşayış evi, sosial obyekt tikilib, yol-nəqliyyat infrastrukturu, istehsal müəssisələri istifadəyə verilib. İşğaldan azad edilmiş ərazilərdə başlanan işlərin xronologiyasına nəzər salanda heyrətlənməmək olmur. Nəhəng infrastruktur layihələrinin qısa müddətdə icrası möcüzə təsiri bağışlayır. Sözsüz ki, həmin möcüzəni yaradanlardan birincisi Prezident İlham Əliyevdir.

Dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın fevralın 18-19-da Ağdam və Xankəndiyə etdiyi növbəti səfəri də bu qəbildəndir. Səfər proqramı Ağdam şəhər mərkəzinə yaxın ərazidə inşa olunan "Hilton Garden İnn" hotelində aparılan tikinti işləri ilə tanışlıqla başladı. Ümumi sahəsi 2,16 hektar olan hotel 2, 6 və 7 mərtəbəli 3 bloklu binadan ibarətdir. Ən müasir standartlara cavab verən hotel binasında 127 otaq var. Burada qonaqların zövqünü oxşayan interyer işləri görülüb. "Hilton Garden İnn" hotelində 100-dən çox işçinin fəaliyyət göstərməsi nəzərdə tutulub.

Sonra "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin açılışında iştirak edən Prezidentə məlumat verildi ki, ikimərtəbəli mərkəzin birinci mərtəbəsində hər birinin gücü 2500 KVa olan 35/0,4 kilovoltluq 2 güc transformatoru, 35 və 0,4 kilovoltluq qapalı paylayıcı qurğular, ikinci mərtəbəsində idarəetmə, texniki və köməkçi otaqlar yerləşir.

Azərbaycan musiqisinin beşiyi olan Qarabağda 30 il musiqi sədaları kəsilmişdi, muğam zəngulələri eşidilmirdi. Qarabağın musiqisini özünə qaytarmaq, yeni musiqiçi və xanəndələrin yetişməsi üçün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva hələ 2023-cü il mayın 2-də Ağdam Muğam Mərkəzinin təməlini qoymuşlar. Onlar indiki səfər çərçivəsində Muğam Mərkəzinə də baş çəkdilər. Mərkəzdə 14 dərs otağı, sərgi salonu, iclas zalı, müəllimlər otağı və digər otaqlar fəaliyyət göstərəcək. Ağdam Muğam Mərkəzinin ərazisində 1250 kvadratmetrlik açıq amfiteatr da inşa edilib.

Sürətlə salınan yeni Ağdam şəhərində yeni bir ünvan var - "Ağdam Residence" yaşayış kompleksi. Təməli 2022-ci il fevralın 13-də İlham Əliyev tərəfindən qoyulub. Üç ildir tikinti işləri aparılan komplekslə tanışlıq zamanı dövlət başçısına və Mehriban xanım Əliyevaya məlumat verildi ki, ümumi sahəsi 1,55 hektar olan ərazidə ilkin 6 yaşayış binası inşa edilib.

Savadlanmaq, elmə, mədəniyyətə, təhsilə can atmaq hər bir insanın mənəviyyatını zənginləşdirir. Qarabağlılar illər idi bu zənginliyi Azərbaycanın müxtəlif rayonlarında müvəqqəti məskunlaşdıqları ərazilərdə əldə edirdilər. Amma Böyük qayıdış onlara bu imkanı doğma yurdda qazanmağa imkan verir. Vaxtilə Ağdamda fəaliyyət göstərən 1 nömrəli tam orta məktəb yenidən inşa edilir. Ümumi tikinti sahəsi 4300 kvadratmetrdən çox olan yeni məktəb binası üç mərtəbədən ibarətdir. Təməli 2021-ci ilin mayında qoyulan təhsil müəssisəsi 960 şagirdlikdir. Məktəbin tikintisinin bu il başa çatdırılması nəzərdə tutulur. Prezident səfər çərçivəsində bu məktəbdə və 160 yerlik 1 nömrəli körpələr evi-uşaq bağçasında görülən işlərlə də tanış olub.

İşğaldan azad edilmiş ərazilər tarixi-mədəni abidələrlə zəngin olmuşdur. Bu gün həmin abidələr də bərpa edilir. Belə abidələrdən biri Əsgəran qalasıdır. Azəbaycan memarlığının nadir nümunələrindən olan qalanın dizayn layihəsi "Mədəni və təbii irs", "İnfrastruktur və xidmətlər", "Əyləncə və istirahət", "Marketinq və təşviqat" olmaqla 4 istiqaməti əhatə edən konsept üzrə hazırlanıb. XVIII əsrdə Qarabağ hakimi Pənahəli xanın göstərişi ilə inşa edilən Əsgəran qalasını ziyarət edən Prezident və xanımı orada görülən işlərlə tanış olublar.

Ağdamdan sonra Xocalının Ballıca kənd sakinləri ilə görüşən dövlət başçısı dünən Xankəndidə "Bulud" hotelin açılışında iştirak edib. Ümumi sahəsi 5325 kvadratmetr olan hotel beş mərtəbədən ibarətdir. Dövlət başçısına məlumat verilib ki, hoteldə 50 nəfər işlə təmin olunub.

Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi Tikiş Fabriki dövlətlərimiz arasında iqtisadi və investisiya əməkdaşlığının dərinləşdirilməsinə dair iki ölkə prezidentinin tapşırığına əsasən inşa edilib. Xatırladaq ki, ötən ilin noyabrında Bakıda keçirilən COP29 zamanı İlham Əliyev və Şavkat Mirziyoyev tərəfindən videobağlantı vasitəsilə Xankəndi Tikiş Fabrikinin açılışı olmuşdur. Bu səfər çərçivəsində fabrikə baş çəkən Prezidentə məlumat verilib ki, müəssisə fəaliyyətə başlayandan bəri 50 minə yaxın idman köynəyi istehsal edilib. Bu il 924 min ədəd köynək istehsalı planlaşdırılır.

44 günlük savaşın qəhrəmanlığını özündə əks etdirən Zəfər parkları həm də Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin bərpasının rəmzidir. İlham Əliyev budəfəki səfərində yeni bir rəmzə "imza atdı" - Xankəndi şəhərində Zəfər parkının təməlini qoydu.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Cəbrayıl şəhərinin artıq 2 min nəfərdən çox sakini var

**Uzun illərin həsrətindən sonra cəbrayıllılar mərhələli olaraq yurdlarına qayıdırlar. Dünən daha bir qayıdış karvanı doğma ocağına yetişib. Bu mərhələdə Cəbrayıl şəhərinə 212 nəfər (37 ailə) köçüb. Bununla da şəhər sakinlərinin sayı 2110 nəfərə çatıb.**







Əzəli torpaqlarına dönməyin, bu yerlərdə yenidən qurub-yaratmağın sevincini yaşayan cəbrayıllılar bunun səbəbkarı olan Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür edib, torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.

"Ən böyük arzum bundan sonrakı ömrümü Cəbrayılda, sülh, əmin-amanlıq içində yaşamaqdır. İllərdir bu günün həsrəti ilə yaşayıram. Ailəmlə, övladlarımla doğma yurduma qayıtdım. Cəbrayılda ilk olaraq yaxınlarımızın, doğmalarımızın məzarını ziyarət edəcəyik. Həmişə arzulamışam ki, kaş qayıdardıq torpaqlarımıza, gedib qəbiristanlığa atamın, anamın məzarını ziyarət edərdim. Şükür ki, bu günü görmək mənə nəsib oldu", - deyir keçmiş məcburi köçkün Zərifə Teymurova.

Elindən, obasından didərgin düşəndə 28 yaşında olduğunu qeyd edən Vəli Şəxiyev ocağına 60 yaşında qovuşur. Keçmiş döyüşçü olan, Birinci Qarabağ müharibəsində iştirak edən Cəbrayıl sakini ömrünün ən gözəl çağlarını torpaq həsrətiylə keçirsə də, artıq məcburi köçkün olmadığının qürurunu yaşadığını qeyd edir.

İşğaldan azad edilmiş bütün ərazilərimizdə olduğu kimi, Cəbrayılda da genişmiqyaslı quruculuq işləri gedir. Şəhərdə sakinlərin rahat və firavan yaşaması, işlə təmin olunması üçün hər bir şərait yaradılır. Cəbrayılda geniş bərpa və quruculuq işləri görülür, əhalinin əmək məşğulluğu təmin edilir.

Müharibədən qısa müddət keçməsinə baxmayaraq, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan irimiqyaslı bərpa-quruculuq işləri nəticəsində həyat yenidən öz axarına düşür, sakinlərinə qovuşur. Qürurla qeyd edə bilərik ki, qısa müddətdə 2856 ailə - 11402 nəfər ocağına geri dönüb. 175 ailə (871 nəfər) Zəngilan rayonunun Ağalı kəndində, 20 ailə (90 nəfər) Tərtər rayonunun Talış kəndində, 570 ailə (2090 nəfər) Laçın şəhərində, 823 ailə (3136 nəfər) Füzuli şəhərində, 217 ailə (823 nəfər) Laçın rayonunun Zabux kəndində, 59 ailə (215 nəfər) Laçın rayonunun Sus kəndində, 371 ailə (1396 nəfər) Şuşa şəhərində, 52 ailə (204 nəfər) Xocalı şəhərində, 479 ailə (2110 nəfər) Cəbrayıl şəhərində, 90 ailə (467 nəfər) Xocalı rayonunun Ballıca kəndində məskunlaşıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## *Ramiz TEYMUROV:* "Cəbrayılda babalarımızın, nənələrimizin qəbirlərini ziyarət edəcəyik"

**"Otuz iki ildən sonra doğma torpaqlara qayıdırıq. Babalarımızın, nənələrimizin qəbirləri oradadır, gedəndən sonra ziyarət edəcəyik".**



AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında doğma yurduna qayıdan Cəbrayıl sakini Ramiz Teymurov söyləyib.

O, göstərilən diqqət və qayğıya görə Azərbaycan dövlətinə, Prezident İlham Əliyevə təşəkkür edib.

"Allah torpaqlarımızı uzun həsrətdən sonra işğaldan azad edən Azərbaycan Ordusuna cansağlığı versin, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət eləsin", - deyə keçmiş məcburi köçkün əlavə edib.

# Cari ilin yanvar ayında 19 milyon 430 min manat dəyərində narkotik vasitə və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb

**Cari ilin yanvar ayı ərzində narkomanlığa və narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizənin nəticələri Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu tərəfindən müqayisəli şəkildə təhlil edilərək ümumiləşdirilib.**

AZƏRTAC narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə 2025-ci ilin yanvar ayının yekununa dair məlumata istinadla xəbər verir ki, hüquq-mühafizə orqanları tərəfindən narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində həyata keçirilən kompleks əməliyyat-axtarış tədbirləri nəticəsində ümumilikdə 685 cinayət faktı aşkarlanıb. Onlardan 179-u narkotik vasitələrin qanunsuz satışı, 505-i narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, biri bu kateqoriyadan olan digər cinayətlərlə bağlı olub.

Aşkarlanan faktlar üzrə qanunsuz dövriyyədən ümumilikdə müsadirə olunan 750 kiloqram 328,026 qram narkotik vasitələrin və psixotrop maddələrin 681 kiloqram 035,96 qramını marixuana, 28 kiloqram 335,05 qramını heroin, 13 kiloqram 146,382 qramını tiryək, 9 kiloqram 230,5 qramını həşiş, 3 kiloqram 621,6 qramını digər narkotik vasitələr və 14 kiloqram 958,534 qramını psixotrop maddələr təşkil edib. Həmçinin göstərilən dövr ərzində 1475 ədəd metadon qanunsuz dövriyyədən götürülüb.

Qanunsuz dövriyyədən çıxarılan 750 kiloqram 328,026 qram narkotik vasitələrin və psixotrop maddələrin ümumilikdə dəyəri 19 milyon 430 min AZN kimi qiymətləndirilir.

Narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı cinayət məsuliyyətinə 235 nəfər cəlb edilib. Onlardan 18-25 yaşadək 14 nəfər, 26-29 yaşadək 31 nəfər, 30 yaş və ondan yuxarı isə 190 nəfər təşkil edir. Həmin şəxslərdən 227-i kişi, 8-i qadındır. Cinayət məsuliyyətinə cəlb edilən şəxslərdən 7 nəfəri xarici ölkə vətəndaşıdır.

Məsuliyyətə cəlb edilən 7 xarici ölkə vətəndaşından 3-ü İran İslam Respublikası, 2-si Rusiya, biri Gürcüstan, biri isə Ukrayna vətəndaşı olub. Xarici ölkə vətəndaşlarından ümumilikdə 10 kiloqram 9,195 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə götürülüb.

Hüquq-mühafizə orqanları tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 22 fakt aşkar edilib, həmin faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 173 kiloqram 322,226 qram və 1475 həb metadon narkotik vasitə və psixotrop maddə çıxarılıb.

Ümumilikdə, aşkar edilən cinayətlərin 14 qrup halında törədilib və həmin faktlar üzrə qanunsuz dövriyyədən çəkisi 194 kiloqram 732,81 maddə müsadirə edilib.

97 cinayət faktı əvvəllər məhkum olunan şəxslər tərəfindən törədilib və onlardan 283 kiloqram 321,7 qram müxtəlif növ narkotik vasitə və psixotrop maddə müsadirə edilib.

Təhlil göstərir ki, ötən ilin yanvar ayı ilə müqayisədə cari ilin müvafiq dövrü ərzində narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı hüquq-mühafizə orqanları tərəfindən aşkar edilən faktların ümumi sayı 413, qanunsuz satış ilə bağlı faktların sayı 137, satış məqsədi olmadan qanunsuz əldə edilib saxlanılması ilə əlaqədar faktların sayı 277, qrup halında olan cinayətlərin sayı 13 fakt, narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı faktların sayı 7 fakt, qanunsuz dövriyyədən çıxarılan narkotiklərin çəkisi 80 kiloqram 693,581 qram, məsuliyyətə cəlb olunan şəxslərin sayı 226 nəfər, məsuliyyətə cəlb edilən xarici ölkə vətəndaşlarının sayı isə 3 nəfər azalıb. Bu kateqoriyadan olan digər cinayətlərin sayı bir vahid artıb.

Ötən ilin yanvar ayı ilə müqayisədə 2025-ci ilin müvafiq dövrü ərzində qanunsuz dövriyyədən çıxarılan güclü təsirə malik narkotik vasitələrin o, cümlədən heroinin çəkisi 57 kiloqram 878,85 qram (67,1 faiz), tiryəkin çəkisi 2 kiloqram 958,494 qram (18,4 faiz), həşişin çəkisi 13 kiloqram 603,05 qram (59,6 faiz), psixotrop maddələrin çəkisi 8 kiloqram 119,957 qram (35,2 faiz) azalıb.

Müsadirə edilən müxtəlif növ narkotik vasitələrin 750 kiloqram 328,026 qramını (90,7 faiz) marixuana təşkil edib. Onun da 623 kiloqram 411,36 qramı (83 faiz) tərkibi psixotrop maddələrlə zənginləşdirilmiş xarici ölkə mənşəli olub. 57 kiloqram 624,6 qramı (7,6 faiz) isə iqlim şəraitinə uyğun olaraq ölkə ərazisində istixanalarda, zirzəmilərdə, meşə ovalıqlarında və çay yataqlarında qanunsuz kultivasiya edilib.

Dövlət Komissiyasının İşçi Qrupunun təşkilatçılığı ilə 2025-ci il yanvarın 28-də qanunsuz dövriyyədən çıxarılan və ya müsadirə olunan külli və xüsusilə külli miqdarlarda olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi üzrə komissiya tərəfindən 24 qərar əsasında barəsində məhvetmə qərarı qəbul edilən 5 ton 168 kiloqram 332,011 qram müxtəlif növ narkotik vasitələr və psixotrop maddələr yandırma üsulu ilə məhv edilib.

Yeni statistik hesabat formasına uyğun Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi tərəfindən bütün növ sərxoşluq hallarının müəyyənləşdirilməsi üçün Səhiyyə Nazirliyinin Respublika Narkoloji Mərkəzinə 7 min 859 nəfər istiqamətləndirilib. Onlardan narkotiklərdən istifadənin təyin edilməsi məqsədilə tibbi müayinədən keçirilən 431 nəfərdən 225 nəfərinin istifadəçi olması müəyyən olunub və bununla bağlı zəruri tədbirlərin görülməsi təmin edilib.

Cari ilin yanvar ayı ərzində "802" qaynar xətt telefon zəng xidmətinə 64 vətəndaş müraciəti daxil olub. Onların 2-si narkotik vasitələrin qanunsuz dövriyyəsi, 7-si narkotik asılılıqdan müalicə, 55-i isə digər məsələlərlə (təkrar müraciət, qanunvericiliyin müddəalarının izah edilməsi, məcburi müalicəyə dair prosedurlar və digər) bağlı olub. Qeyd edilən müraciətlər üzrə müvafiq tədbirlərin görülməsi üçün aidiyyəti orqanlara 9 məktub ünvanlanıb.

"802" qaynar xətt zəng xidməti vasitəsilə narkotik vasitələrin və narkomanlığın yayılmasının qarşısını almaq məqsədilə aidiyyəti təşkilatlarla və vətəndaşlarla operativ qaydada əlaqələndirilmə təmin edilərək, narkotik vasitələrin qanunsuz dövriyyəsinə dair verilən məlumatlar əsasında müvafiq cinayət işləri qaldırılıb və qanunsuz dövriyyədən külli miqdarda narkotik vasitələr götürülüb, narkotik istifadəçiləri könüllü müraciətləri əsasında ixtisaslaşmış tibb müəssisələrində müalicəyə yönləndirilib, narkotik asılılıqdan əziyyət çəkən ailələrə psixoloji dəstək və mövcud qanunvericiliyin müddəaları izah edilərək, zəruri tövsiyələr verilib.

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Qan yaddaşı - ədalətin hökmü

### Tarixin müxtəlif dönəmlərində erməni faşizminin qurbanına çevrilən şəhidlərimizin qisası yerdə qalmadı



**1988-2024-cü illər ərzində Ermənistanın hərbi təcavüzü nəticəsində 3 min 493 nəfəri mülki, 15 min 357 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 18 min 850 şəxs qəsdən öldürülüb. 4 min 435 nəfəri mülki, 51 min 803 nəfəri hərbi qulluqçu olmaqla, ümumilikdə 56 min 268 şəxsə müxtəlif dərəcəli bədən xəsarətləri yetirilməklə qəsdən öldürülmələrinə cəhd edilib.**

Hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslər barəsindəki cinayət işi üzrə ittiham aktında qeyd olunan bu dəhşətli statistika təkcə 36 il ərzində erməni faşistləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş qətliamların, soyqırımların göstəricisidir. Ancaq ərazilərimizə göz dikən erməni şovinistlərinin hələ XIX əsrin sonlarından başlayaraq azərbaycanlılara qənim kəsilmələri də tarixin qanlı faktıdır. İkiəsrlik zaman ərzində erməni qaniçənləri milli zəmində onminlərlə azərbaycanlını qətl edərək bəşəri cinayətlər törədiblər.

Torpaqlarını işğaldan azad etmiş, suverenliyini tam təmin etmiş Azərbaycanda hərbi cinayətlər törətməkdə təqsirləndirilən erməniəsilli şəxslərin qanlı əməllərinə görə hazırda mühakimə edilmələri və sübutlar təsdiqlənərsə, yaxın zamanlarda layiqli cəzalarını alacaqları, həm də tarixin müxtəlif dönəmlərində erməni faşizminin qurbanına çevrilən bütün şəhidlərimizin qanının yerdə qalmaması deməkdir.

#### Erməni faşizminin qanlı siması

Erməni şovinistləri indiki Ermənistan ərazisində yaşayan soydaşlarımızı tarixi yurdlarından sıxışdırıb çıxarmaq, eləcə də Qarabağın Azərbaycandan qoparılaraq Ermənistana birləşdirilməsi üçün sözlə ifadəsi mümkün olmayan tüküรpərdici cinayətlərə əl atıblar, qanlı əməllərini gerçəkləşdirmək üçün əsasən mülki əhalimizi hədəf seçiblər, körpə, uşaq, qadın, qoca demədən azərbaycanlıları qətlə yetiriblər. Təkcə XX əsrin faciəsi kimi tarixə düşən Xocalı soyqırımı zamanı əhalimizə tutduqları divan, əsir və girov götürdükləri insanlara verdikləri insan ağlına sığmayan dəhşətli işgəncələr erməni faşizminin qanlı simasını gözlər önünə sərməyə bəs edir.

Hərbi cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin Bakıda keçirilən məhkəməsində təcavüzkar müharibə gedişində Azərbaycan xalqına qarşı törədilmiş soyqırımı, habelə soyqırımı əlamətləri olmadan əhalinin bütövlükdə və ya qismən məhv edilməsi faktları elan olunub. Bildirilib ki, Xocalı rayonunun ərazisində yaşayan azərbaycanlı əhalini kütləvi şəkildə milli-etnik mənsubiyyətinə görə bir qrup kimi məhv etmək niyyəti ilə onları öldürmək, sağlamlığına ağır və əqli qabiliyyətinə ciddi zərər vurmaq məqsədilə Xocalı rayonuna və ətraf yaşayış məntəqələrinə silahlı basqınlar edilib, azərbaycanlıların baş dərisinin soyulması, qulaq, burun, cinsiyyət üzvlərinin kəsilməsi, gözlərinin çıxarılması, diri-diri yandırılması, cinayətkar fəaliyyətinin qarşısının alınması üçün zərərsizləşdirilmiş erməniəsilli şəxslərin qəbirləri üzərində başlarının qurbanlıq kimi kəsilməsi, qadına, qocaya və uşağa fərq qoymadan qəddarlıqla müxtəlif işgəncələr verilməsi ilə ümumilikdə 613 şəxs qəsdən öldürülüb məhv edilməklə Xocalı soyqırımı törədilib.

#### Erməni terroru

1994-cü ildən, atəşkəs elan olunandan sonra da azərbaycanlılara qarşı erməni terroru səngimək bilmədi. Bununla bağlı erməni vəhşiliyini sübut edən dəhşətli faktlar isə yüzlərlədir.

2011-ci ilin iyul ayında Tovuz rayonunun Ermənistanla həmsərhəd Əlibəyli kəndində baş verən faciə hələ də unudulmayıb. Həmin vaxt ermənilər partlayıcı qurğu quraşdırılmış "itəbənzər" uşaq oyuncağını Ermənistan tərəfindən Əlibəyli kəndinə daxil olan Tovuz çayına buraxmışdılar. O zaman ərazidə oynayan 13 yaşlı Şahmalıyeva Aygün Zirəddin qızının oyuncağı taparaq oynatması nəticəsində partlayış baş vermiş, yeniyetmə faciəvi şəkildə həyatını itirmişdi.

1994-cü ildə də həmin ərazidə analoji hadisə baş vermiş, Ermənistan tərəfindən çaya buraxılan oyuncağı götürərkən partlayış baş verməsi nəticəsində iki azyaşlı uşaq həlak olmuş, biri isə yaralanmışdı.

Yuxarıda sözügedən məhkəmə prosesinin fevralın 18-də davam edən baxış iclasında da təcavüzkar müharibənin gedişində törədilmiş bir sıra konkret cinayət faktları sadalanıb.

2017-ci il iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndi istiqamətində müdafiə olunmayan ərazilərə, yaşayış məntəqələrinə və mülki əhaliyə zirehli texnikalardan atəş açılıb, "OQ-9M" markalı 73 millimetr çaplı, qəlpəli qumbaranın Alxanlı kəndinin ərazisinə düşərək partlaması nəticəsində kəndin dinc sakinləri Sahibə Allahverdiyeva və 2016-cı il təvəllüdlü azyaşlı Zəhra Quliyeva müxtəlif bədən xəsarətləri ilə qəsdən öldürülüb.

2020-ci il iyulun 14-də Ermənistanın Tavuş vilayəti Berd rayonu Movses kəndi ərazisində yerləşən mövqelərdən və ələ keçirilmiş "Ara postu" adlanan döyüş mövqeyindən iriçaplı artilleriyadan Müdafiə Nazirliyinin Tovuz rayonunun Ağdam kəndində yerləşən "N" saylı hərbi hissəsinin müvafiq döyüş postunun yaxınlığında qurulmuş sığınacaq istiqamətində atəşlər açması, atılmış mərminin sığınacağa düşərək partlaması nəticəsində general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov və gizir Yaşar Babayev qəsdən öldürülüb.

İkinci Qarabağ müharibəsi zamanı döyüş meydanında uduzan Ermənistan ordusu cəbhədən kilometrlərlə uzaqda yerləşən şəhər və kəndlərimizi raket atəşinə tutaraq terror törədiblər.

#### Erməni qaniçənlərinə ən böyük cəza

Xalqımızın səbir kasasını daşıraraq ayağa qaldıran Tovuz döyüşlərindən cəmi iki ay sonra - 2020-ci il sentyabrın 27-də Azərbaycan haqq uğrunda mübarizəyə qalxaraq 44 günə torpaqlarının işğalına son qoydu. Bununla 11 min fərarisi olan işğalçı Ermənistan ordusu darmadağın edildi. İkinci Qarabağ müharibəsində qazanılan parlaq zəfər sayəsində ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin olundu. Geniş tikinti və quruculuq işləri həyata keçirilən Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış həyata keçirilməyə başlanıldı.

Hərbi cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin törətdikləri qanlı əməllərə görə ədalət mühakiməsinə çəkilməsi isə bir başqa tarixi hadisə oldu.

Ancaq elə Xankəndidən, Şuşadan, Ağdamdan, Xocalıdan... bütün Qarabağdan dünyaya yeni gələn azərbaycanlı körpələrin səsinin ucalması, milli kimliyimizə düşmən kəsilərək qətliamlara, soyqırımlara əl atan erməni faşistlərinə ən ağır cəzadır.

Bununla həm də torpaqlarımızın bütövlüyü uğrunda qurban gedən bütün şəhidlərimizin intiqamı alındı, ruhları şad oldu.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Aİ Ermənistanı müharibəyə təhrik edir

**Yanvarın 27-də daha iki il müddətinə mandatı uzadılmış Avropa İttifaqının "mülki" adı altında fəaliyyət göstərən missiyasının məqsədi elə başından bəllidir. İlkin mərhələdə qısa müddətdə və sayca az tərkibdə gəlmələri barədə Azərbaycanla razılıq əldə edilsə də, sonradan bu olmadan mandatın müddətinin uzadılması və tərkibinin genişləndirilməsi missiyanın kəşfiyyatçı və təxribatçı fəaliyyətindən xəbər verir.**



Bununla Ermənistanı guya Azərbaycandan qoruduqlarını göstərmək istəyən Qərbin regionla bağlı niyyəti bəllidir. Azərbaycan Ermənistanda sülh prosesi ilə bağlı danışıqlarda heç bir vasitəçiyə ehtiyac olmadığını və bunun iki ölkə arasında həll ediləsi məsələ olduğunu dəfələrlə bildirib. Bununla belə, sülhdən dəm vuranlar Ermənistana müxtəlif yollarla dəstək göstərməklə təcavüzkar ölkəni yenidən münaqişəyə təhrik edirlər. Bu da sülh istiqamətində görülən işlərə, atılan addımlara təsir etməklə, təhlükəsizliyin və sabitliyin qarşısını alır. Beləliklə, regionda yeni münaqişə ocaqlarının yaranmasına rəvac verir.

Milli Məclisin deputatı Sahib Alıyev qəzetimizə açıqlamasında qeyd edib ki, Makron Fransasının Cənubi Qafqazla bağlı niyyəti Ermənistanın təhlükəsizliyini təmin etmək deyil, bu ölkəni oda salmaqdır, ondan geosiyasi alət kimi faydalanmaqla, öz maraqlarının təmininə çalışmaqdır. Bu maraqlar da Fransanın potensialına və çəkisinə uyğun deyil. "Ona görə bu ölkənin adını xüsusi vurğulayıram. Çünki Avropa İttifaqının "mülki" missiyasının bizim regiona göndərilməsində ən çox canfəşanlıq edən Fransadır. "Mülki" missiyanın əsas fəaliyyəti sərgiləmək istədikləri kimi Ermənistanın təhlükəsizliyinin təmin edilməsinə deyil, guya bu ölkəyə qarşı hər hansı təhdidlərin olması barədə görüntü yaratmaqla onun silahlandırılmasına yönəlib. Ona görə də Ermənistanla sərhəddə tez-tez boy göstərirlər, guya bunların orada varlıqları Azəbaycanın qarşısını alır görüntüsü yaradırlar", - deyə siyasətçi əlavə edib.

Deputat Prezident İlham Əliyevin dəfələrlə Azərbaycanın heç kimin torpağında gözünün olmadığı və Ermənistanla münaqişəni bitmiş saydığı barədə fikirlərini xatırladıb.

Onun fikrincə, bütün baş verənlərin arxasında duran reallıq bundan ibarətdir. Çox təəssüf ki, Ermənistan hakimiyyəti öz milli maraqlarına dayanan siyasət yürütmək əvəzinə, Nikol Paşinyanın ABŞ-də Atlantik Şurasındakı çıxışında bildirdiyi kimi, əvvəllər olduğu tək bir deyil, bir neçə dövlətdən asılılığı müstəqillik səviyyələrinin artırılması kimi qiymətləndirir. Ortadakı reallıq budur. Amma bununla da Ermənistanı plasdarma çevirdiklərinin fərqində deyillər.

S.Alıyev vurğulayıb ki, Ermənistan gözünü açıb hazırda Ukraynada nələrin baş verdiyinə baxmalı və görməlidir ki, bu ölkəni plasdarma çevirənlər indi hansı sövdələşmənin arxasınca qaçırlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Bayden administrasiyasından qalmış "miras"

### Şərqi Avropa və Yaxın Şərq nə vaxtacan od içində olacaq

**ABŞ-nin keçmiş prezidenti Co Bayden tərəfindən dünya düzəninin dəyişdirilməsi siyasəti beynəlxalq münasibətlərdə ciddi gərginliyə səbəb oldu. Qərbin Şərq üzərində yenidən hegemonluğunun təmin edilməsinə yönəlmiş bu siyasət nisbətən sabit dünya düzəninin dağılması ilə nəticələndi.**

Mütəxəssislərin fikrincə, beynəlxalq münasibətlərdə belə vəziyyət İkinci Dünya müharibəsindən sonra ilk dəfə idi yaranırdı. Düzdür, Karib böhranı ABŞ ilə SSRİ arasında gərginliyə səbəb olmuşdur. Amma bu, əsasən iki dövlət arasında yaranan gərginlik idi və odur ki, danışıqlar yolu ilə nizamlandı. İndiki vəziyyəti bununla müqayisə etmək olmaz. Bu dəfə gərginliyin coğrafiyası genişdir və o, qlobal xarakter daşıyır.

Məsələ ondadır ki, SSRİ-nin dağılması və onun varisi olan Rusiyanın məlum səbəbdən zəif düşməsi Qərbə beynəlxalq arenada istədiyi kimi hərəkət etməyə imkan vermişdi. O üzdən əvvəllər sovetlər birliyinin, sonralar Rusiyanın müttəfiqləri olmuş bir sıra Yaxın Şərq ölkələrində Qərbin dəstəyi ilə rejimlər dəyişdirildi. Rusiya buna müqavimət göstərə bilmədiyi üçün həmin regionda siyasi nüfuzunu itirdi. Yeni rejimlər Qərbin qəzəbinə gəlməmək üçün Rusiyadan üz çevirdilər. Bu. şimal qonşumuzun qlobal güc olmaqdan çıxıb regional gücə çevrilməsi demək idi.

Amma Rusiya bunu qəbul etmək istəmirdi. Rusiya-Ukrayna müharibəsinin başlanmasında da bu amil əsas rol oynadı. RF Ukraynanı öz arxa bağçası bilir və onun Qərbə inteqrasiyasını qəbul etmirdi. Qərb isə Rusiyanın bu tələbinə məhəl qoymayaraq Ukraynanı Qərbə inteqrasiya istiqamətinə yönəldirdi. Söhbət bu ölkənin gələcəkdə NATO-nun üzvü olması ehtimalından gedirdi. Kreml isə fikirləşirdi ki, Ukrayna Şimali Atlantika blokuna daxil olarsa, ertəsi gün NATO-nun hərbi qüvvələri Rusiya sərhədində dayanacaq. "Göz gördüyündən qorxar", deyiblər. SSRİ dağılanda Qərb Rusiyaya söz vermişdi ki, Şərqi Avropa ölkələri NATO-ya üzv qəbul olunmayacaq. Sonradan Qərb ortada rəsmi bir sənəd olmadığını bildirərək sözünün üstündə durmadı - Şərqi Avropa ölkələri bir-birinin ardınca NATO-ya üzv qəbul edildilər. Sonrası məlumdur - artıq 3 ildir Avropanın ən böyük ölkəsi ilə dünyanın ən böyük ölkəsi arasında müharibə gedir.

Donald Tramp seçki marafonunda dəfələrlə bəyan etmişdi ki, hakimiyyətə gələcəyi halda bu müharibəni 24 saat ərzində həll edəcək. Ancaq real vəziyyətdə bunun mümkün olmayacağını içi D.Tramp qarışıq hamı bilirdi. Müharibədə çox qan tökülmüş, şəhərlər, qəsəbələr, kəndlər yer üzündən silinmişdi. Belə olan halda iki ölkə arasında ədalətli sülhün olacağı mümkündürmü? Bu sualın cavabını hələlik heç kəs bilmir.

Amerikada da anlayırlar ki, belə mürəkkəb məsələyə bu cür bəsit yanaşmaq olmaz. Məğlub tərəf sayaraq (hərçənd bu savaşda qalib tərəf də yoxdur) Ukraynaya Rusiyanın istəyinə uyğun bütün şərtləri qəbul etdirmək mümkün deyil. Əgər ABŞ bu fikrə düşərsə, o, ədalətli vasitəçi funksiyasını və ümumiyyətlə, beynəlxalq nüfuzunu itirə bilər. Vəziyyətin belə qəliz olması ABŞ Prezidentinin Rusiya və Ukrayna üzrə xüsusi elçisi Kit Kelloqu "heç kim Volodimir Zelenskini sülh razılaşmasına məcbur etməyəcək" bəyanatını verməyə vadar etdi.

Bu arada Avropa İttifaqının danışıqlardan kənar qalması "qoca qitə"dəki siyasətçiləri qəzəbləndirib. Çünki onlar bu müharibəni öz savaşları kimi qəbul edirlər və məlum səbəbdən buna haqları da var. Əvvəla, müharibədən ən çox ziyan çəkən onlardır - ucuz rus qazı və neftindən məhrum olmaq, Rusiya kimi nəhəng bazarı itirmək, Ukraynadan olan milyonlarla qaçqına qucaq açmaq sıradan faktlar deyil. Üstəlik də Ukraynaya milyardlarla avro dəyəri olan hərbi və maddi dəstək.

Bu gərginlik fonunda fevralın 18-də Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda ABŞ və Rusiya nümayəndələri arasında Rusiya-Ukrayna müharibəsinin nizamlanması barədə danışıqlar aparıldı. Aparılan danışıqların birinci raundundan sonra xəsisliklə verilən açıqlamaya görə, savaşın nizamlanması üç mərhələdən - atəşkəs, Ukraynada prezident seçkilərinin keçirilməsi və sülh danışıqlarına başlanmasından ibarət olacaq. Sözsüz ki, bu, ABŞ və RF-nin razılaşmasıdır. Ukraynanın və Avropanın həmin razılaşmaya münasibəti isə hələlik rəsmən açıqlanmayıb. Amma verilən şərhlərdən, açıqlanan mövqelərdən və görünən reaksiyalardan belə sezmək olar ki, Ukrayna və Avropa Ər-Riyad razılaşmasından, yumşaq desək, heç də məmnun qalmayıblar.

Hamı D.Trampın gəlməsini ümidlə gözləyirdi, təbii ki, dünyadakı gərginliyə son qoyacağına söz verdiyi üçün. Axı Co Bayden administrasiyasının apardığı yanlış siyasət beynəlxalq münasibətləri üçüncü dünya müharibəsi həddinə gətirmişdi. Rusiya-Ukrayna savaşından savayı, İsrail-Fələstin müharibəsinin başlaması və burada minlərlə dinc insanların ölməsi də Co Bayden administrasiyasının ayağına yazılmalıdır. Düzdür, bu münaqişəyə müvəqqəti son qoyulub. Müvəqqəti ona görə ki, nəticələri havadan asılı vəziyyətdə qalıb və ondan yenə barıt qoxusu gəlir.

Hazırda Co Baydenin miras qoyduğu iki yanğın ocağında vəziyyət belədir. Bəs Donald Tramp bu mirasın altından necə çıxacaq? Dünya səbirsizliklə bu sualın cavabını gözləyir.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## *Türk ekspertlər:* "ASALA terror təşkilatını təmizə çıxarmaq cəhdi pisniyyətli addımdır"

**Türkiyədəki erməni icmasına yaxın mediada ermənilərin qanlı cinayətlərini terror adlandırmaqdan imtina edən dairələr ASALA terrorçularını təmizə çıxarmağa çalışırlar. Ohanes Kılıçdağının fevralın 14-də Türkiyədə ermənilər tərəfindən nəşr olunan "Aqos" qəzetində dərc edilmiş məqaləsi bunun bariz nümunəsidir.**

AZƏRTAC xəbər verir ki, Ankara Avrasiya Araşdırmaları Mərkəzinin (AVİM) analitikləri Tuğçe Tecimer və Selenay Erva Yalçın 1982-ci ildə Ankara Hava Limanına hücumda iştirak edən ASALA silahlıları Zohrab Sarkisyan və Levon Ekmekciyanın terrorçu adlandırıla bilməyəcəyini iddia edən nəşrin müəllifinin mövqeyi ilə bağlı qəzəblərini ifadə ediblər.

AVİM ekspertləri qeyd ediblər: "Bütün parametrlər üzrə paytaxtın hava limanında mülki şəxslərin vəhşicəsinə qətlə yetirilməsi terror aktıdır. Tarixi reallıqları şübhə altına almaq və bununla da qanlı cinayətə bəraət qazandırmaq cəhdi pisniyyətli addımdır".

Analitiklər qeyd ediblər ki, məqalənin müəllifinin ASALA yaraqlılarını bilərəkdən terrorçu adlandırmaqdan imtina etməsi, ən yumşaq təbirlə desək, O.Kılıçdağının özünün savadsızlığından və məlumatsızlığından xəbər verir.

Tecimer və Yalçın türk xalqının öz tarixini çox yaxşı bildiyini vurğulayıblar. Üstəlik, sadə vətəndaşların hadisələrə baxışı təkcə arxiv sənədlərinə və ya dövlətin rəsmi mövqeyinə deyil, həm də nəsildən-nəslə ötürülən əcdadların hekayətlərinə əsaslanaraq formalaşır. Ankara mərkəzinin analitikləri deyirlər: "Bu gün də Şərqi Anadoluda erməni quldur dəstələrinin vəhşilikləri və dinc əhaliyə divan tutması, bütün kəndləri yerlə yeksan etməsi barədə hekayələr danışılır.




AVİM ekspertləri sözlərinə yekun vurublar: "Təəssüf ki, "Aqos"un qurucusu Hrant Dinkin ölümündən sonra qəzet daşnakların mövqeyindən çıxış edərək türk xalqına qarşı açıq-aşkar düşmənçilik kursu götürdü. Nəşrin bu siyasəti əvvəllər çoxsaylı məqalələrdə də qeyd olunub".

1982-ci il avqustun 7-də ASALA terrorçularının Türkiyə paytaxtının hava limanına hücumu nəticəsində 9 nəfər həlak olub, 72 nəfər yaralanıb. Zohrab Sarkisyan və Levon Ekmekçiyan əvvəlcə qeydiyyatdan keçən sərnişin izdihamının içərisində bomba partladıb, daha sonra atıcı silahlarla insanlara atəş açıblar. Bundan sonra erməni terrorçuları 20 nəfəri girov götürərək hava limanının yeməkxanasına giriblər.

Hüquq-mühafizə orqanlarının əməkdaşları ilə atışma zamanı Sarkisyan öldürülüb, Ekmekçiyan isə yaxalanaraq məhkəmə qarşısına çıxarılıb.

Levon Ekmekçiyana qarşı çıxarılan edam hökmü 28 yanvar 1983-cü ildə Türkiyə Milli Təhlükəsizlik Şurası tərəfindən təsdiq edilib. Bu ədalətli hökm yerinə yetirilib və terrorçunun nəşi yalnız 32 ildən sonra yaxınlarına təhvil verilib.



# Mədəniyyət



Dəyərlərimiz

## Nəriman Nərimanovun islam dininə baxışı

**Nəriman Nərimanov Azərbaycan ədəbiyyatı tarixində yazıçı, publisist, dramaturq kimi şöhrət qazanmış, bir çox yeniliklərə və ilklərə imza atmışdır. "Nadir şah" əsəri ilə ilk tarixi faciə janrının, "Bahadur və Sona" əsəri ilə isə ilk milli romanın əsasını qoymuşdur. Sovet dövrü çağlarında Azərbaycan ədəbiyyatı Nərimanovun qələmini xalqına kommunist ideologiyası prinsiplərinə dayanaraq, ateizmi təbliğetmə yolunun böyük carçısı kimi tanıtmışdır.**

Çox təəssüf ki, onun dini görüşləri insanlara düzgün şəkildə çatdırılmamışdır. O, mənsub olduğu xalqını, yalanlarla əsarətdə saxlamaq istəyən din adamlarını tənqid atəşinə tutmuşdur. Hələ gənc yaşlarında ədib dövrünün haqsızlıqlarına etiraz edərək ilk əsəri olan "Nadanlıq" dramında zəhmətkeş kütlələri maddi və mənəvi sıxıntı içərisində, əsarətdə saxlayan feodalizm cəmiyyətinin qayda-qanunlarına, gerilik təzahürlərinə qarşı mübarizəyə qalxır, xalqı cəhalətin və dini mövhumatın amansız girdabından qurtarmağa cəhd edirdi.

N.Nərimanovun 1917-ci ildə yazdığı "Pir" povestində riyakar insanlar tərəfindən yaradılan din ocaqları tənqid edilir. "Pir" povestində o, islam dinini deyil, dindən xəbəri olmayan, bu pərdə altında insanları yalanlarla əsarətdə saxlamaq istəyən mollaları tənqid etmişdir. C.Məmmədquluzadənin "Ölülər" əsərində Şeyx Nəsrullah obrazı ilə "Pir" povestindəki Molla Cəfərqulu xarakteri arasında oxşarlıq daha çoxdur. Şeyx Nəsrullah kimi Molla Cəfərqulu da öz əxlaqsızlığını din pərdəsi altında gizlətmək istəyir. Lakin bu örtünü, insanların gözündən çəhrayı eynəyi Gülbadam obrazı qaldıraraq mollanın həqiqi simasını ifşa edir. Nərimanovun povestində "Allahın sifətlərini bil, adil, mehriban ol, hamını sev, o vaxt Allahına yavuqlaşarsan, yavuqlaşıb da ona məhəbbət bağlarsan. Həqiqi məhəbbət bağladığı məbuda insan özü səcdə edəcəkdir" fikirlərindən görürük ki, ədib dinə məntiqlə yanaşır, elmli din xadimlərinə hörmət bəsləyir.

Nəriman Nərimanov əsərlərində dinə mədəni-mənəvi və sosial hadisə kimi baxır, ona ciddi elmi mövqedən yanaşır, daxili aləminin mürəkkəbliyini, tərkibində gerçəklikdən uzaq düşmüş ünsürlərlə yanaşı, real əsasları olan sağlam ruhi dəyərlərin də olduğunu qeyd edir. Yeri gəldikcə bu dəyərlərin ümumbəşəri mənasını öz yazılarında da izah edir. Amma onun dini görüşləri uzun illər birmənalı qarşılanmayaraq mübahisə doğurmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Nərimanov bir çox qəza və şəhərlərə səyahət edir, orada yaşayan insanların həyat şəraitini öyrənir, onlarla söhbətlər edirdi. O, XX əsrin 20-ci illərinin əvvəllərində Göyçayda bir acınacaqlı hadisə ilə qarşılaşır. Bir qadın təlaşlı halda Nəriman Nərimanova yaxınlaşaraq doktordan xəstə övladını müayinə etməsini istəyir. Müayinədən sonra məlum olur ki, insanların müqəddəs hesab etdikləri pirin torpağından bir qədər şəfa məqsədilə xəstəyə yedirdiblər. Bu da uşağın ağır dərd tapmasına səbəb olub. Hadisə doktor Nərimanova çox pis təsir göstərib.

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin Elmi Kitabxana və onun avtomatlaşdırılması şöbəsinin müdiri Pərixanım Muradova "Nəriman Nərimanovun milli ruhlu publisistikasına dair" məqaləsində yazır: "O, savadlı, elmli din xadimlərinə böyük hörmət bəsləyirdi. İslam dininə münasibəti onun siyasətinin ən ümdə məsələlərindən olmuş və milli dövlətçilik baxışlarında önəmli yer tutmuşdur. 1920-ci il mayın 26-da onun verdiyi ilk göstərişlərdən birində yerli əhalinin milli adətənənələrinə və dini hisslərinə hörmətlə yanaşılması tələb olunurdu. 1921-ci ilin aprelində Nərimanov Təzəpir məscidinin bərpası, təmiri üçün xüsusi sərəncam vermişdir və bu işin icrasını hərbçilərə tapşırmışdır. Heç təəccüblü deyil ki, repressiya axınına dinimizi təbliğ edən insanlar da məruz qalmışdır. Nərimanov məşhur din xadimlərini Axund Fərəcullah Pişnamazzadə, Nurməmməd Əfəndi İmamzadə, Molla Əhməd Hacı Nəbi oğlunu həbsdən azad edərək onların bəraət qazanmalarına nail olmuşdur. İslam dininin həqiqətlərini olduğu kimi insanlara çatdırıb onları aydınladan, dinə xidmət edən insanları Nərimanov hər zaman müdafiə etmişdir. Allahın evi sayılan məscidə daxil olarkən, müqəddəs məkanın qapısı kandarında ayaqqabılarını çıxarıb, içəri daxil olduqda öncə mehrab qarşı-



sında təzim etdikdən sonra müsəlman rəhbərə yaraşacaq tərzdə "Bismillahir rəhmanir rəhim" deyərək məsciddə toplaşan xalq qarşısında çıxışına başlamışdır".

N.Nərimanov islam dininin incəliklərini dərindən mənimsəyən savadlı bir şəxs idi. O, Həştərxanda mollaların və teatr məktəbləri müəllimlərinin yığıncağındakı nitqində Məhəmməd peyğəmbərin bütlərə qarşı çıxma missiyasını nəql etmişdir: "Heç bir qüvvə peyğəmbəri tutduğu yoldan döndərə bilməmişdir. O, millətini cahilliyin çirkli pəncəsindən qoparmaq, onlara dünyanın həqiqi gözəlliklərini aşılamaqla doğru yola, haqq yoluna çəkmişdir". Nərimanovun fikrincə, gözəllikləri və səadəti tərənnüm edən dini kitablardakı kəlamlar ya tamamilə ört-basdır edilmiş, ya da həqiqi mənaları yanlış şəklə salınmaqla dəyişdirilmişdir. O, 1906-cı il mayın 12-də "Həyat" qəzetində dərc etdirdiyi yazısı ilə islam hamilərinə üz tutaraq deyirdi: "Cənab islam hamiləri! Siz zəmanəyə uyuşdunuz, siz yüz illər ilə islamı qaranlıqda tutmuşdunuz, siz islamda olan azadəliyi bilmərrə basdırmışdınız". Mənafeləri naminə insanlardan əsl islamı və onun dəyərlərini gizlətmək yolunda dəridən-qabıqdan çıxan hamiləri şiddətlə məzəmmət edən Nərimanov, islamı yad ünsürlərin müdaxiləsindən qorumağı onların əsas vəzifəsi olduğunu qeyd edirdi.

Din üzərindən yoxsulları aldatmaq və cilovlamaq üçün məharətlə çalışıb-vuruşmuş, hətta elmə, təhsilə meyil edənləri günahkar kimi qələmə verən dövrünün bir çox fanatik dindarlarını Nərimanov "Nadanlıq" əsərində tənqid atəşinə tutaraq deyir: "Heyif, çox heyif ki, bizim millət peyğəmbər buyurduğuna da əməl etməyir! Belə millətin axırı puç olmazmı?" "Elmi kommunizmi düşünmək üçün yol" əlyazmasında müəllif yazır: "İslam fəlsəfəsi deyir ki, insan azad yaradıcıdır, daha doğrusu, özü-özündən asılıdır." Həqiqətən də Qurani-Kərimdə insanın iradə sərbəstliyinə dair ayələr vardır. Hələ çar Rusiyasının hakimiyyəti dövründə Nərimanov özünün ən möhtəşəm "Tibb və islam" əsərini yazaraq gerçəklikdən payı olmayan fikirləri darmadağın edir. Bu əsərdə o, qəflət yuxusundan oyanmaqda əziyyət çəkən xalqına islam dinini və müasir tibbi qarşı-qarşıya qoyaraq həqiqi elmi sübuta yetirir.

N.Nərimanov əsərində gözəl sifəti, saflığı xüsusi qeyd etmişdir: "Rəbbimizin şu gözəl sifətlərindən biri də budur: hamı bəndəsinə bir gözlə baxır". Bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, köləlikdən azad olması yollarını axtaran Nərimanov, insanın insan tərəfindən istismarının əleyhinə idi. İslam dini də öz növbəsində bu zülmü qadağan edərək pisləyir. Sosializm cərəyanını qəbul edib və onu dəstəkləyən şəxs mütləq ki, "dinsiz", "allahsız" qəbul edilir. Lakin doktorun həm bədii, həm də tibbi əsərlərini diqqətlə oxusaq, o, bir yaradıcını və elçisini qəbul edir. Sosialist olmasına baxmayaraq, onun kommunizm məsələlərində bir çox mürəkkəb və qarmaqarışıq fikirlərin həyatına hakim kəsilməsini M.S.Ordubadinin Nərimanov haqqında yazdığı xatirələrində görürük. O, bu səbəblə rejimi dəstəkləyirdi ki, insanlar arasında sinif bərabərsizliyi yaransın, kimsə digərindən maddi əsnada üstün olmasın. İnqilabdan sonrakı dövrlərdə doktorda yeni bir əqidənin formalaşdığını görürük. O, dinin və milli dəyərlərin itirilməməsi üçün Şərqə məxsus kommunizm ilə islamiyyəti barışdırmaq fikrini üstün tuturdu. O deyirdi: "Dünyada bir əqidənin hakim olması milliyyətin orijinallığını itirmək deməkdir. Çünki əqidənin milli adət və milli mədəniyyət üzərində böyük bir təsiri ola bilər".

*Günel MAHMUDOVA,*
*Nəriman Nərimanovun*
*Xatirə muzeyinin kiçik elmi işçisi*

Həmkarımız

## Yaşamaq da, yaratmaq da gözəldir

**Ömür bir çaya bənzəyir. Ancaq hər zaman sakit, rəvan axıb getmir. Zaman gəlir ki, həyatımız sanki kükrəyib-daşan sellərə dönür. Özümüzü onun təlatümləri içərisində hiss edirik. Belə vaxtlarda mətin olmaq, inamını itirmədən yoluna davam etmək əsl hünər istəyir.**



Yazıçı-publisist Aydın Ağazadə də bu gün yola saldığı yetmiş yaşa həyatın burulğanlarından keçərək gəlib. Ancaq çətinlikləri, ziddiyyətli məqamları çox olsa da, bu gün də üzünü güldürən xatirələri də az deyil. Uşaqlıq illərini yada saldıqca, simasında təbəssüm görünür...

O, ziyalı ailəsində dünyaya gəlib. Babası gəmi kapitanı, atası isə geoloq olub. Aydın müəllim yada salır: "Atam Rəhman Ağazadə uzun illər geoloq işlədi. Ailəsini halal zəhmətilə dolandırdı. Tanıyanlar onun necə dürüst, ədalətli insan olduğunu bilirlər. O, bizə hər zaman ata qayğısını hiss etdirirdi. Ancaq mən bu fikirdəyəm ki, ailə ocağı daha çox ana nəfəsi, nəvazişi ilə isinir. Mənim anam sanki ailəsinin, övladlarının başına dolanan pərvanə idi. Bizim dincliyimiz, rahatlığımız, səhhətimizdə, təhsilimizdə, işlərimizdə problemlə qarşılaşmamağımız... anam üçün xoşbəxt olmaq bu idi. Mən həyatım boyu onun qədər fədakar insan görmədim... Valideynlərimiz bizim düzgün tərbiyə almağımıza, doğru yola yönəlməyimizə çalışırdılar. Bunları bizə sözlə təlqin etmirdilər. İlk növbədə, özləri nümunə göstərirdilər. Onlar bizə halallığı, zəhmətdən qaçmamağı, yaxşı təhsil almağı, işinin peşəkarı olmağı, ləyaqətlə yaşamağı öyrətdilər".

1972-ci ildə orta məktəbi bitirdi. Sənədlərini Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) verdi. Müsabiqədən keçə bilmədi. O il tələbə olmaq arzusuna çatmasa da, tale ona gözləmədiyi yerdən qapı açdı. Aydın Ağazadə o vaxtları xatırlayır: "On səkkiz yaşım vardı. Bir gün Kirov adına parkda (hazırda Şəhidlər xiyabanı - Z.F.) bilyard oynayanda yazıçı Firudin Ağayevlə tanış oldum. Mənim savadım, danışıq qabiliyyətim, məlumatlı olmağım onun xoşuna gəldi. Dostlaşdıq. Məndən soruşdu: "Harda işləyirsən?" Cavab verdim ki, heç yerdə. Firudin Ağayev Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində işləyirdi. Mənə dedi ki, gəl televeziyaya, orda sənin kimi gənclərə ehtiyac var. Getdim. Dövlət Televiziya və Radio Verilişləri Komitəsində iki ay ştatdankənar rejissor köməkçisi işlədim. Yazıçı Nahid Hacızadə Dövlət Televiziya və Radio Verilişləri Komitəsində baş redaktor idi. Gördü yaxşı işləyirəm. Dedi ki, Aydını ştata götürün".

1976-cı ilin martında onu Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə işə qəbul etdilər. Həmin ilin aprelində "Səhər görüşləri" verilişi efirə çıxdı. Tezliklə bütün respublikada çox sevilən və maraqla gözlənən bu verilişin hazırlanmasında Aydın Ağazadənin də əməyi oldu.

Sanki bambaşqa bir aləmə düşmüşdü. Çox çalışmağı işgüzarlıqla, məsuliyyətlə yanaşı, həm də televiziyaya böyük marağının yaranmasından irəli gəlirdi. Elə işə can yandırmağı sayəsində tezliklə kollektivdə ünvanına xoş sözlər söylənən əməkdaşlardan biri oldu.

Ancaq ali təhsil almaq arzusunu reallaşdırmağı da unutmadı. Aydın Ağazadə 1977-ci ildə Mirzəağa Əliyev adına Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) Teatrşünaslıq fakültəsinə daxil oldu. 1983-cü ildə həmin ali məktəbi bitirdi. Bu günədək fəxr edir ki, diplom rəhbəri professorlar Yaşar Qarayev və Mehdi Məmmədov oldu: "Mehdi Hüseyn və teatr" mövzusunda diplom işi yüksək qiymətləndirildi. Aydın Ağazadə xatırlayır: "Müəllimlərim mənə əla qiymət verdilər. Bu, həyatımın ən gözəl, indiyədək qürurla yada saldığım xatirələrimdən biridir. O zaman müəllimlərim mənə məsləhət gördülər ki, dissertasiya üzərində işləyim. Ancaq həyatın şərtləri, məişət qayğıları elmi fəaliyyətlə məşğul olmağıma imkan vermədi. Elə tələbə ikən də həm oxuyurdum, həm də işləyirdim. Tələbəlik illərimdə bir müddət televeziyada xüsusi müxbir oldum. Sonra mərhum Əhməd Aşurbəyov məni Dövlət Televiziya və Radio Verilişləri Komitəsində "Kinoproqram" redaksiyasına apardı. "Kino, aktyor, rol" verilişinin redaktoru oldum. Verilişin aparıcısı Xalq artisti Ramiz Məlik idi".

Aydın Ağazadə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində 1990-cı ilədək müxtəlif vəzifələrdə çalışdı. Həmin il keçmiş sovet qoşunlarının Bakıda törətdikləri 20 Yanvar faciəsi zamanı Azərbaycan televeziyasında da gərgin hadisələr baş verdi. Rəhbərlik dəyişdi. Yeni rəhbərliyin işçilərə qarşı qeyri-obyektiv münasibəti onu Dövlət Televiziya və Radio Verilişləri Komitəsindən uzaqlaşdırdı.

Ancaq jurnalistlik peşəsindən ayrılmadı. O, 1990-cı ildən "Ədalət" qəzetində fəaliyyətə başladı. 1992-ci ilədək həmin mətbu orqanda əvvəl müxbir, sonra şöbə müdiri, baş redaktorun birinci müavini oldu. 1992-2001-ci illərdə isə Aydın Ağazadə "Azərbaycan" qəzetində çalışdı. Bu qəzetin Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri işlədi. 1995-1997-ci illərdə o, Azərbaycan Hüquqşünaslar Birliyinin orqanı olan "Hüquqşünas" qəzetinin baş redaktoru oldu. Respublikamızda həyata keçirilən demokratik-hüquqi islahatlar barədə silsilə yazıları həmin qəzetin səhifələrində dərc edildi.

Aydın Ağazadə Bakı Dövlət Universitetində ikinci ixtisas kimi ali hüquq təhsili aldı. 2001-ci ildə universiteti bitirdi.

O, 2001-ci ildən Ədliyyə Nazirliyinin İnsan Hüquqları və İctimaiyyətlə Əlaqələr İdarəsinin informasiya şöbəsinin rəisi işlədi. Ədliyyə müşaviri Aydın Ağazadə altmış yaşınadək həmin vəzifədə çalışdı. 2015-ci ildə ədliyyə orqanlarında qulluqda olmanın son yaş həddinə çatması ilə əlaqədar təqaüdə göndərildi. Sonrakı fəaliyyəti yenə jurnalistika sahəsində oldu. Müsahibimiz danışır: "525-ci qəzet"in Türkiyə təmsilçisi kimi üç il altı ay İstanbulda işlədim. Qardaş ölkədə olanda Türkiyənin prezidenti Rəcəb Tayyib Ərdoğan haqqında kitab yazdım. "Türkün böyük lideri" adlı həmin kitab həm bizdə, həm də Türkiyədə yaxşı qarşılandı. Sonra səhhətimdə problem yarandı. On iki gün İstanbulda xəstəxanada yatdım. Həkimlər dedilər ki, altı ay yazmaq, oxumaq olmaz. Altı aylıq Bakıya gəldim. Həmin müddətdə pandemiya oldu. Yollar bağlandı. İstanbula dönə bilmədim. İndi də dəvət edirlər. Düşünürəm... İndi yaş da belədir ki, sərbəstlikdir. Yazı-pozu ilə məşğul oluram. Nəvələrlə oyanayırıq. Günlərimiz belə keçir..."

Aydın Ağazadə heç zaman qələmdən ayrılmır. O, uzun illərdir ki, publisistika ilə yanaşı, bədii yaradıcılıqla da məşğul olur. O, "Həsən Əliyev-hakim və insan" (1997), "Cəllad aman istəyir" (2001), "Əbədi Selcan" (2005) və "Sabun köpüyü" (2009) kitablarının, "Sonuncu şahid" ssenarisi əsasında çəkilmiş eyniadlı dördseriyalı televiziya filminin, "Baş tutmayan elçilik", "Dahi", "O dünyada görüşərik" pyeslərinin müəllifidir.

Aydın Ağazadə Azərbaycan Yazıçılar, Jurnalistlər və Hüquqşünaslar birliklərinin və Azərbaycan Teatr Xadimləri İttifaqının üzvüdür.

O, "Qızıl qələm" və "Məmməd Araz" ali ədəbi mükafatların laureatıdır: "2020-ci ildə Prezident İlham Əliyev mənə Əməkdar jurnalist adı verdi", - Aydın Ağazadə fərəhlə deyir.

"Mən düşünürəm ki, bu dünyada bir məhəbbət var. O da Tanrı məhəbbətidir - Aydın Ağazadənin dəqiq və dəyişməz qənaətidir. - O məhəbbət sanki konstitusiya - baş qanundur. Ondan sonra Vətənə, torpağa, anaya, ataya, övlada, dostlara... məhəbbət gəlir. Bir insanın qəlbində, varlığında İlahi məhəbbət yoxdursa, o vətənini, valideynini, həyat yoldaşını, övladını, dostunu da sevə bilməz.

Yetmişinə yetişən ömrünün təcrübələri də, dərsləri də böyükdür. Bir də könlündə qubarı silinməyən Bakıda 1990-cı ildə baş verən 20 Yanvar faciəsinin, Qarabağın, Şərqi Zəngəzurun Ermənistan tərəfindən işğal olunmasının, otuz ilə yaxın əsarətdə qalmasının mənəvi ağrıları var. Tarix unudulmur. Ancaq o kədər kölgəsinə dörd ildən çoxdur ki, gün işığı düşüb. Vətən müharibəsinin zəfər sevinci ilə, qalib xalqın nümayəndəsi olmağın qüruru ilə yaşamaq da, yaratmaq da gözəldir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Beynəlxalq Muğam Mərkəzində elmi-praktiki seminar keçirilib

**Azərbaycan Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzinin təşkilatçılığı və Qərbi Azərbaycan İcmasının dəstəyi ilə Beynəlxalq Muğam Mərkəzində "Milli-mənəvi dəyərlərimiz Qərbi Azərbaycan qaynaqlarında" mövzusunda elmi-praktiki seminar keçirilib.**



Tədbirin əsas məqsədi Qərbi Azərbaycanın folkloru, musiqisi və ifaçılıq sənəti kimi milli dəyərləri, habelə kulinariya ənənələrini və mədəni irsin digər elementlərini gənc nəslə çatdırmaqdır.

Seminar çərçivəsində mütəxəssislər bu mövzuda mühazirələr oxuyub, tədqiqat işlərini təqdim ediblər.

Musiqili proqramla müşayiət olunan tədbirdə "İrəvan" ansamblının ifasında aşıq musiqisi, bəstəkarların əsərləri, xalq mahnıları, eləcə də folklor nümunələri səsləndirilib.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirəzqızı jurnalistlərə müsahibəsində Azərbaycan folklorunun xalqımızın çoxəsrlik tarixində mühüm rol oynadığını qeyd edib: "Bizim əsrlər boyu nəsildən-nəslə ötürülən zəngin folklorumuz var. Bu irsi qorumaq və gələcək nəsillərə çatdırmaq mənəvi borcumuzdur".

O, həmçinin vurğulayıb ki, Qərbi Azərbaycan mövzusu bu gün dövlətimiz üçün prioritet məsələlərdən biridir. Əməkdar mədəniyyət işçisi əlavə edib: "Məhz bu tədbir zamanı möhtərəm Prezident İlham Əliyevin Azərbaycan təsviri və dekorativ sənətinin banilərindən biri Mirzə Qədim İrəvaninin anadan olmasının 200 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalaması rəmzi hadisədir. Qərbi Azərbaycanda bir çox görkəmli şəxsiyyətlər doğulub boya-başa çatıb, onlar Azərbaycan elminin və mədəniyyətinin inkişafına böyük töhfələr veriblər".

Daha sonra jurnalistlərlə söhbətin davamında Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli Qərbi Azərbaycan mövzusunun aktuallığı barədə danışıb. O vurğulayıb: "Sözsüz ki, bu məsələ bir neçə səbəbə görə son dərəcə vacibdir. Qərbi Azərbaycan ərazisi ayrıca bölgə deyil, vahid Azərbaycanın etnomədəni sisteminin bir hissəsidir. Bu dəyərləri öyrənmədən vahid Azərbaycan mədəni dəyərlərindən danışmaq mümkün deyil".

Əziz Ələkbərli Qərbi Azərbaycanın milli-mənəvi dəyərlərinin dərin tarixi köklərə malik olduğunu və ölkənin ümumi mədəni irsinin tərkib hissəsini təşkil etdiyini vurğulayıb.

## Azərbaycanlı rəssamın əsəri Parisdə nümayiş olunur

**Parisin 8-ci rayonunda yerləşən Böyük Sarayda (Grand Palais) "Art Capital" beynəlxalq incəsənət sərgisi açılıb. AZƏRTAC xəbər verir ki, incəsənət sərgisində tanınmış Azərbaycan rəssamı Vidadi Nərimanbəyovun yaradıcılıq üslubunun davamçısı olan Nigar Nərimanbəyovanın "Sənt-Eqzuperinin Kiçik şahzadəsi" və "Tarielin nəvəsinin portreti" adlı əsərləri nümayiş olunur.**

Fransa Rəssamlar Cəmiyyətinin təşkil etdiyi sərgidə nümayiş olunan əsərlər xüsusi münsiflər heyəti tərəfindən seçilir.

N.Nərimanbəyovanın əsərləri fransız sənətsevərlər tərəfindən həmişə maraqla qarşılanıb. O, Parisdə "Qrand Pale"də keçirilən "Art capital 2016" sərgisində "Adajio" diptixinə görə "TOİLE D'OR" mükafatına layiq görülüb. Bununla da N.Nərimanbəyova "2016-cı ilin Fransada və Avropada ən yaxşı rəssamı" statusunu qazanıb. Onun əsərləri sərgi ziyarətçilərində yüksək əhvali-ruhiyyə yaradır. Rəssam tamaşaçıları dərindən düşünməyə sövq edən maraqlı mövzular seçir.

Azərbaycanlı rəssamın əsərləri uzun müddətdir ki, Avropa sənətçilərinin diqqət mərkəzindədir. Məşhur fransız sənətşünası, akademik Jan-Şarl Aşe Nigar Nərimanbəyovanın yaradıcılığını böyük Şaqalla müqayisə edərkən onun rəsmlərini "müasir incəsənətin şah əsərləri" adlandırıb.



# Şirin su haqqında acı həqiqət

## Bu əvəzsiz neməti hər kəs milli sərvət kimi qəbul etməlidir

**İnsanların, bitkilərin və heyvanların da daxil olduğu ekosistemin əsasını su təşkil edir. Su yer üzündə canlıların yaşaya bilməsi üçün əvəzsiz sərvətdir. Ona görə də bu sərvətin qorunması hər birimizin borcu və vəzifəsidir.**



Su qaynaqlarının mühafizəsi həm də quraqlığa qarşı mübarizənin başlanğıcıdır. Susuz qalmaq epidemik xəstəliklər, məcburi köçlər və ərzaq qıtlığı kimi təhlükələrə yol açır. Ən təhlükəli isə odur ki, bu gün dünyada şirin su ehtiyatları sürətlə tükənir. Şirin su ehtiyatlarının azalmasına əsas səbəb olan amillər iqlim dəyişmələri, sənayeləşmə və urbanizasiyadır. Sənayeləşmə ilə əlaqədar şirin suyun istehlakı artır, çünki əksər sənaye sahələrinin inkişafı üçün böyük həcmdə su tələb edilir. Şəhərlərin böyüməsi və kənd yerlərindən şəhərlərə miqrasiyanın artması da su ehtiyatlarının qeyri-bərabər paylanmasına səbəb olur.

Xatırladaq ki, planetin 70 faizi su ilə örtülü olsa da, lakin içməli su ehtiyatları onun yalnız 1 faizini təşkil edir. Üstəlik, dünyadakı şirin su qaynaqlarının yalnız 10 faizi əlçatandır. Bu əsas verir deyək ki, artıq qızıl yataqları, neft quyuları kimi içməli su ehtiyatlarını da milli sərvət hesab etmək olar.

Məlumdur ki, ən çox su istehlak edilən sahə kənd təsərrüfatıdır. Əkin-biçin sahələrində suyun israfı, damcı sistemləri və suvarma texnologiyalarının çatışmaması hazırda su ehtiyatlarının azalmasına gətirib çıxarır. Bu da öz növbəsində ərzaq çatışmazlığına və iqtisadi çətinliklərə yol açır. Ekspertlər deyirlər ki, şirin su ehtiyatlarının azalması suyun qiymətinin artmasına və əlçatanlığının çətinləşməsinə zəmin yaradır, ekosistemin balansını pozur, su hövzələrində yaşayan bitki və heyvan növlərinin yaşayış mühiti məhdudlaşır. Belə halda isə su təmizləmə texnologiyalarının inkişafı gündəmə gəlir.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov mətbuata müsahibəsində deyib ki, iqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarımız son onilliklərdə xeyli azalıb və beynəlxalq iqlim modellərinə əsasən, suyun gələcəkdə də azalma ehtimalı var: "Aparılan qiymətləndirmələrə əsasən, 1991-2023-cü illərdə ölkə (Azərbaycan - red.) ərazisində temperaturun yüksəlməsi və yağıntının azalması səbəbindən daxili çayların əksəriyyətində və transsərhəd çaylarda orta illik su sərfində azalma müşahidə edilib. Ölkə üzrə 2023-cü ildə 26,2 milyard kubmetr su ehtiyatı formalaşmışdır ki, onun da 17,8 milyard kubmetri yerüstü, 8,4 milyard kubmetri yeraltı su ehtiyatlarına aid olub. Yerüstü formalaşan su ehtiyatlarının 4,6 milyard kubmetr hissəsi ölkə ərazisində, 13,1 milyard kubmetr hissəsi isə qonşu ölkələrin ərazisində formalaşıb. 2023-cü il ərzində su ehtiyatlarından istifadə 9,2 milyard kubmetr təşkil etmişdir. Bunun 3,2 milyard kubmetri suyun mənbədən təsərrüfatlara çatdırılması zamanı infrastruktur, buxarlanma, sudan səmərəsiz istifadə və qanunsuz qoşulmalar səbəbindən itkiyə gedib. Respublika ərazisinin təxminən 3/4 hissəsi ölkənin ən böyük su arteriyası olan Kür çayı hövzəsinin aşağı relyefində yerləşdiyindən çayın qonşu dövlətlərin ərazilərində çirklənməsi ekoloji gərginlik yaradır. Qonşu ölkələr tərəfindən təmizlənməmiş tullantı sularının Kür və Araz çaylarına axıdılması onun hidrokimyəvi rejiminə və suyunun keyfiyyətinə mənfi təsir göstərir".

Komitə sədri təəssüflə bildirib ki, Ermənistan tərəfindən transsərhəd çayların çirkləndirilməsi onların ekoloji vəziyyətinə təhlükə yaradır. Belə ki, Araz çayı, Oxçuçay, Bərgüşadçay, Ağstafaçay və s. çayların müxtəlif mənşəli tullantılarla çirkləndirilməsi davam edir: "Ermənistan ərazisində yerləşən Zəngəzur (Qacaran) mis-molibden zavodu və Qafan mis filizsaflaşdırma kombinatlarının kimyəvi çirkli suları, eləcə də Qafan-Qacaran şəhərlərinin bioloji çirkli suları təmizlənmədən Oxçuçaya axıdılır və nəticədə çay hövzəsi ölü zonaya çevrilir. 2020-ci ildəki araşdırmalara əsasən, Azərbaycan 2040-cı ildə su qıtlığı ilə üzləşə biləcək ölkələr arasında 18-ci yerdə qərarlaşıb və çox yüksək su stresi kateqoriyasına (80 faiz) aid edilib. Lakin II Qarabağ müharibəsində əldə edilən müzəffər qələbə ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatları üzərində idarəetmənin bərpası, həyata keçirilən irimiqyaslı infrastruktur layihələri və dəniz, təmizlənmiş tullantı və digər alternativ su mənbələrindən istifadə ilə bağlı gələcək layihələrin elan edilməsindən sonra qeyd edilmiş siyahıda Azərbaycan çox yüksək su stresli ölkələr sırasından orta stresli ölkələr sırasına (40-60 faiz) dəyişdirilib".

Məlum olduğu kimi, Prezident İlham Əliyev 2024-cü ilin oktyabrında "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Strategiya 2024-2040-cı illəri əhatə etməklə 2027-ci ilədək qısamüddətli strateji baxış, 2030-cu ilədək ortamüddətli strateji inkişaf baxışı, 2040-cı ilədək uzunmüddətli strateji hədəf baxışı olmaqla üç mərhələdə həyata keçiriləcək. Nəzərə alsaq ki, regionun digər ölkələri ilə müqayisədə Azərbaycanın su ehtiyatları daha azdır, deməli, bu sənədin icrası sayəsində əldə ediləcək nəticələrin xüsusi əhəmiyyəti olacaq.

Şirin su ehtiyatlarının azalması dünya üçün ciddi təhlükədir. Bu resursun qorunması və daha effektiv istifadəsi gələcək nəsillərin su ehtiyatlarına sərbəst şəkildə çıxışlarını təmin etmək üçün vacib şərtlərdir. Şirin sudan dolayı yarana biləcək problemlə qarşılaşmamaq üçün hər kəs bu nemətə münasibətdə məsuliyyətli olmalıdır. Dünyanın su ehtiyatlarını qorumaq yalnız dövlətlərin deyil, hər birimizin vəzifəsidir.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (Tel.: (012) 539-59-33) zəng vura bilərsiniz.*


# "Konstitusiyada dini etiqad azadlığı" mövzusunda seminar təşkil olunub

**Azərbaycan İlahiyyat İnstitutunda (AİI) "Konstitusiyada dini etiqad azadlığı" mövzusunda seminar keçirilib.**



Tədbir AİI tələbələrinin iştirakı ilə baş tutub.

İlahiyyat fakültəsinin dekan müavini, dosent Asəf Qənbərov çıxışında sözügedən mövzuda təlimlərin keçirilməsinin əhəmiyyətini diqqətə çatdırıb. O, məruzəsində insan hüquqlarının inkişafında dinin mövqeyinin və rolunun beynəlxalq konvensiyalarda necə əks olunduğunu nəzərə çatdırıb. Daha sonra müxtəlif dinlərdə insan hüquqlarına münasibəti müqayisəli şəkildə qeyd edib, ölkəmizdə dini və etnik azlıqların hüquqlarına münasibəti yüksək qiymətləndirib. A.Qənbərov insan hüquqları üçün təhlükə törədən amillərlə mübarizə üsullarını da şərh edib.

Məruzəçi insan hüquqları və haqlarının Konstitusiyamızda necə əks olunduğunu, insan haqlarının qorunmasının hansı maddələrdə öz əksini tapdığını diqqətə çatdırıb. Dini etiqad anlayışının tarixi, nə zaman formalaşdığı, həmçinin müasir insan hüquqları hərəkatının tarixi, beynəlxalq səviyyədə tanınması barədə ətraflı danışıb.

Seminar müzakirələrlə davam edib.

Məlumat üçün bildirək ki, seminar Azərbaycan Prezidentinin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında sərəncamına uyğun olaraq təsdiqlənmiş tədbirlər planına əsasən baş tutub.

***"Azərbaycan"***

# Keçmiş hərbi xunta Paşinyana qarşı birləşir

**Ermənistanı inkişaf edən ölkə kimi qələmə verməyə səy göstərən baş nazir Nikol Paşinyanın cəhdlərinə baxmayaraq, yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və yalanları bir daha üzə çıxarır. Xüsusilə postmüharibə dövründə yaranan kəskin sosial-iqtisadi durum, Azərbaycanla sülh müqaviləsinin imzalanmasını müxtəlif bəhanələrlə uzadan ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməsi vəziyyəti daha da ağırlaşdırır.**



İstənilən ölkədə sənayenin bərpası, ilk olaraq, ölkəyə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır. İndi isə gəlin baxaq: müharibədən sonra Ermənistana investisiya qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar da Paşinyan hakimiyyətinə olan inamsızlıq üzündən ölkəni tərk ediblər.

Bu halda ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son 4 il ərzində ölkə sənayesinə kredit qoyuluşları təxminən 43 milyon dollar azalıb.

Digər tərəfdən isə erməni müxalifəti müəyyən nəticələr əldə etməyə, daxili sosial problemlərdən, narazılıqlardan iqtidara qarşı istifadə edərək, möhkəmlənməyə, ictimai rəyin diqqətini bu məsələlərə yönəltməyə çalışır. Ermənistanın sabiq prezidenti Robert Koçaryan mətbuat konfransı keçirərək, ölkənin Avropa İttifaqına üzvlük prosesi ilə bağlı parlamentdə qəbul edilən qanun layihəsini sərt tənqid edib. Sabiq prezidentin bəyanatlarının təhlili göstərir ki, o, ölkədə fəaliyyət üçün əsas iki istiqamət seçib: Qarabağ erməniləri kartından istifadə və Rusiyadan qopmağın fəsadlarını cəmiyyətə çatdırmaq. Bununla da Koçaryan həm müəyyən dairələrə, xüsusən də Moskvaya dəstək üçün mesaj göndərib, həm də Qarabağ erməniləri kartından növbəti parlament seçkilərində istifadə edəcəyinə işarə vurub.

Keçmiş hərbi xunta təmsilçiləri çox yaxşı anlayırlar ki, hazırkı şərtlərdə Paşinyanı seçki yolu ilə hakimiyyətdən uzaqlaşdırmaq mümkün deyil. Çünki hakim qüvvə seçkini saxtalaşdırmaq üçün bütün mexanizmləri mənimsəyib və təkmilləşdirib.

Qeyd edək ki, iqtidar mütəmadi olaraq daxili istifadə üçün gizli sorğular keçirir. Yerli medianın yazdığına görə, bir neçə gün əvvəl Paşinyana yeni bir sosial sorğu göstərilib və nəticəsi baş naziri əsəbiləşdirib. Qeyd olunur ki, sorğuya əsasən, baş nazirin reytinqi 22-25 faiz aralığında olub. Yekunda Paşinyan özünün ən etibarlı adamlarına reytinqinin daha da düşməməsi üçün ona gələcək fəaliyyət proqramını təqdim etməyi tapşırıb.

Bu arada "Hayastan" bloku və "Ana Ermənistan" ictimai nəqliyyat tariflərinin artırılmasını bəhanə edərək, hər gün etirazlara qalxır, aksiyalar keçirir. Məqsəd paytaxt İrəvanda kütləvi nümayişlərə, etirazlara nail olmaqdır. İrəvanda ictimai nəqliyyatda qiymət artımı ilə bağlı etirazlara hökumətin fərqli reaksiyası da üzə çıxıb. Əvvəlcə rayon administrasiyalarının əməkdaşlarına gediş haqqının bahalaşmasına etiraz edən, gediş haqqını ödəməyən vətəndaşlara qarşı çıxmaq tapşırılsa da, bu yaxınlarda əmr dəyişdirilib. Yeni təlimata əsasən, hətta şəxsi avtomobili olanlar da işə gedib-gəlmək üçün ictimai nəqliyyatdan istifadə etməlidirlər. Buna səbəb isə sosial şəbəkələrdə etiraz edən insanları təhqir edən şəxslərin bələdiyyə işçiləri, inzibati ərazi dairəsi əməkdaşlarının olduğu barədə çoxsaylı faktların üzə çıxması olub.

Bu günlərdə Ovik Ağazaryan və "Vətəndaş sazişi" partiyasından xaric edilmiş digər deputat Akop Aslanyanın yeni yaradılmış "Vahid Milli Sosialist Partiyası"nın təsis qurultayı keçirilib. Ağazaryan qurultayda bəyan edib: "Biz Nikol Paşinyanın yenidən seçilməməsi və yenidən baş nazir olmasının qarşısını almaq üçün mübarizə aparacağıq".

Bu gedişlə ölkənin daha dərin böhran yaşaması, ağır problemlər içində çabalaması, insanların narazılığının pik həddə çatması qaçılmazdır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Ölkə ərazisində sulu qar, qar yağacaq

**Azərbaycanda bu günə gözlənilən hava proqnozu açıqlanıb.**



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı, səhərdən bəzi yerlərdə sulu qara, axşam isə qara keçəcəyi gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi ehtimalı var. Şimal-qərb küləyinin arabir güclənəcəyi ehtimal edilir. Havanın temperaturu gecə 1-3° isti, gündüz 4°-dək isti olacaq. Atmosfer təzyiqi normadan yüksək - 766 millimetr civə sütunu, nisbi rütubət 70-80 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində havanın arabir yağıntılı olacağı, sulu qar, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir sürətlənəcək. Havanın temperaturu gecə 0-4°, gündüz 4-8° isti, dağlarda gecə 7-12°, gündüz 2-6° şaxta olacaq. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.

# Küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıqlar verilib

**Milli Hidrometeorologiya Xidməti fevralın 20-21-də Bakıda və Abşeron yarımadasında, eyni zamanda bəzi bölgələrdə gözlənilən küləkli hava şəraiti ilə bağlı sarı və narıncı xəbərdarlıqlar verib.**




Xidmətdən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında, eyni zamanda Neftçala və Qobustanda şimal-qərb küləyi əsəcək, narıncı xəbərdarlığa uyğun olaraq küləyin sürəti 20.8-28.4 metr/saniyə təşkil edəcək.

Naxçıvan Muxtar Respublikası, Salyan, Hacıqabul, Xaçmaz, Şabran, Siyəzən, Xızı, Quba, Qusar, Ağstafa, Qazax, Tovuz, Şəmkir, Gəncə, Gədəbəy, Daşkəsən, Göygöl, Naftalan, Goranboy, Samux, Mingəçevir, Balakən, Zaqatala, Qax, Şəki, Kəlbəcər, Laçın, Zəngilan, Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad, Biləsuvarda isə qərb küləyi əsəcək, sarı xəbərdarlığa uyğun olaraq küləyin sürəti 13.9-20.7 metr/saniyə təşkil edəcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Rüstəm Rüstəmov, Qambay Muradov, Cavid Əsədov, Abid Əliyev, Ayaz və Əlikram Qasımovlar, Azər Baxışov, Elxan İlyasov, Umud Xanlarov və Rafiq Hüseynov dostları Elxan Behbudova qardaşı

**FƏXRƏDDİN SABİR OĞLU BEHBUDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Abdulla Yusifov, Ələmdar Məmmədov, Xanlar Bayramzadə, İsaxan Vəliyev və Rasim Əhmədov görkəmli hüquqşünas alim, hüquq elmləri doktoru, professor

**İLYAS İSMAYILOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3496
Sifariş 368

Qiyməti 60 qəpik